100 ilin qəzeti

# ŞƏRQ QAPISI

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Sayı: 6 (24.441)

8 fevral 2025-ci il, şənbə

www.serqqapisi.az

Təsisçi: Naxçıvan Muxtar Respublikasının Ali Məclisi

# Naxçıvanın muxtariyyəti

## tarixi zərurət, tarixi nailiyyət



### Ulu Öndər Heydər ƏLİYEV:

*“Naxçıvanın muxtariyyəti mühüm hadisədir. Bu çətin bir dövrdə, böyük bir mübarizənin nəticəsi olubdur. Naxçıvanın statusunu qoruyub saxlamaq üçün Moskva müqaviləsinin və xüsusən Qars müqaviləsinin böyük əhəmiyyəti olubdur. Naxçıvan Azərbaycanın əsas torpağından ayrı düşdüyünə görə, Naxçıvanın bütövlüyünü, təhlükəsizliyini, dövlətçiliyini, muxtariyyətini gələcəkdə də təmin etmək üçün Qars müqaviləsi bizim üçün çox böyük, əvəzi olmayan bir sənəddir. Belə ağır şəraitdə Naxçıvanın yaşamasının, inkişaf etməsinin əsas şərtlərindən biri də odur ki, Naxçıvana o vaxt muxtariyyət hüququ veriblər.”*

Azərbaycanın zəngin dövlətçilik tarixində müstəsna əhəmiyyətə malik Naxçıvan Muxtar Respublikasının yaradılmasının 101-ci ildönümüdür. Naxçıvana muxtariyyət statusunun verilməsi 1924-cü il fevralın 9-da mümkün olsa da, bu proses daha əvvəldən, hələ Xalq Cümhuriyyətinin mövcud olduğu dövrdən başlayıb və keçmiş sovetlərin Cənubi Qafqazı erməniləşdirmək siyasətinin nəticəsi kimi tarixi zərurətə çevrilərək gündəmə gətirilib. Xalq Cümhuriyyətinin elanından bir gün sonra, daha dəqiq desək, 1918-ci il mayın 29-da heç bir beynəlxalq hüquqa, ədalətə sığmayan şəkildə İrəvan şəhərinin paytaxt kimi Ermənistana verilməsindən sonra bölgədə vəziyyət olduqca mürəkkəbləşib, ermənilərin ölkəmizə qarşı ərazi iddiaları artıb. SSRİ-nin himayədarlığı ilə 1918-1920-ci illərdə Azərbaycanın yaxın ərazilərini Ermənistana birləşdirmək üçün açıq silahlı mübarizə aparıldı. Həmin vaxt Azərbaycan Xalq Cümhuriyyəti Naxçıvanı siyasi-diplomatik cəhətdən müdafiə etməyə çalışsa da, faktiki şəkildə hərbi dəstək verə bilmirdi. Bu da vəziyyətin olduqca gərginləşməsinə, Naxçıvanın işğalına rəvac verirdi. Həmin dövrdə Naxçıvan əhalisinin qəhrəmanlığı, dönməz iradəsi hadisələrin gedişatında mühüm rol oynadı.

Naxçıvan Muxtar Respublikasının yaradılması və onun işğal təhlükəsindən xilasında yerli əhalinin haqlı mübarizəsi ilə yanaşı, o zaman Azərbaycan İnqilab Komitəsinin üzvü, xalq ədliyyə komissarı olan Behbud ağa Şahtaxtinskinin xidmətləri, o cümlədən Türkiyənin qardaş dəstəyi, ədalətli mövqeyi həlledici təsir göstərdi. Dövlət xadimi 1920-ci ilin əvvəllərindən başlayaraq V.Leninə göndərdiyi məktub və teleqramlarda Naxçıvana Azərbaycanın tərkibində muxtariyyət verilməsini faktlarla əsaslandırırdı. Naxçıvanın muxtariyyət məsələsinin siyasi gündəmdə yerini almasının əsas səbəbi isə 1920-ci il dekabrın 2-də Rusiya ilə Ermənistan arasında bağlanmış hərbi-siyasi saziş oldu. Həmin sazişə əsasən qədim Azərbaycan torpağı olan Zəngəzurun Ermənistana verilməsi ilə Naxçıvan məqsədli şəkildə Azərbaycanın əsas ərazisindən ayrı salındı. Bununla da Naxçıvanın muxtariyyət məsələsi gündəliyə gəldi. 1921-ci ilin əvvəlində, daha dəqiq desək, B.Şahtaxtinskinin həmin il martın 1-də Leninə göndərdiyi məktub və arayışda Cənubi Qafqazla, eləcə də Naxçıvanla bağlı mühüm məsələlərin qaldırılmasından sonra proses artıq praktiki mərhələyə yönləndirildi. Həmin il Naxçıvanda referendum keçirildi və əhalinin 90 faizindən çoxu Naxçıvanın muxtariyyət statusunda Azərbaycanın tərkibində qalmasına səs verdi. Hadisələrin gedişatı baxımından referendumun nəticəsi də problemin həllində mühüm rol oynadı və beləliklə, sovet Rusiyası bu məsələnin həllivacibliyini dərk edərək müzakirələrə başladı. Danışıqlar sovet Rusiyası ilə Türkiyə Böyük Millət Məclisi nümayəndələri arasında gedirdi. Nəticə etibarilə, Naxçıvanın Azərbaycanın himayəsi altında olan muxtar ərazi statusu RSFSR ilə Türkiyə arasında 1921-ci il martın 16-da imzalanan Moskva müqaviləsində təsbit edildi. Lakin Türkiyə ilə Cənubi Qafqaz respublikaları arasında həll olunmamış məsələləri nizama salmaq mühüm bir vəzifə kimi qarşıda durduğundan bu barədə müzakirə və fikir mübadiləsi üçün konfransa ehtiyac vardı. Dövlətlər arasındakı razılığa əsasən belə bir konfrans Qars şəhərində təşkil edildi. Qars konfransı 1921-ci il sentyabrın 26-dan oktyabrın 13-dək baş tutdu və Qars müqaviləsinin bağlanması ilə yekunlaşdı. Konfransda Azərbaycanı xalq fəhlə-kəndli nəzarəti komissarı Behbud ağa Şahtaxtinski və Naxçıvan SSR XKS-nin göndərdiyi Tağı Səfiyev təmsil edirdilər.

Səhifə ⇨ 3


Azərbaycan və yeni geosiyasi reallıq 2
Azərbaycanın sülh layihələri 5
Təbiətə bağlılıq daim ucalıq sayılıb 6
Bir ömrün uvertürası – Üzeyir Hacıbəyli 7
Naxçıvanın 7 incisi, *yaxud nənəmin danışdıqları* 8
NAXÇIVAN – tarixləşən ruh, əbədiləşən Vətən 12



# Azərbaycan və yeni geosiyasi reallıq

## Prezident İlham ƏLİYEV:

*“Ancaq mən daha çox hesab edirəm ki, ölkələrin suverenliyi toxunulmaz olmalıdır və qorunmalıdır, heç kim heç kimin işinə qarışmamalıdır. Biz buna nail ola bilmişik. Bizim işimizə heç kim qarışa bilməz. Cəhdlər olub? Bəli, olub. Olacaq? Yəqin ki, olacaq. Nəticə olub? Yox və olmayacaq.”*

Qlobal dünya siyasətində mühüm dəyişikliklərin proqnozlaşdırıldığı 2025-ci ildə ölkəmizin milli maraqlarının daha qətiyyətli müdafiəsi və formalaşmış yeni geosiyasi reallığa uyğun vektorların müəyyən olunması dövlət başçımız Prezident cənab İlham Əliyevin fəaliyyətinin prioritet istiqaməti kimi bütün mötəbər platformalarda və nüfuzlu media qurumlarında diqqətlə izlənilib, təhlil olunur. Cənubi Qafqazın lider ölkəsi olan Azərbaycanın iqtisadi və hərbi sahədə qazandığı uğurlar və həmçinin ölkəmizdə ictimai-siyasi və sosial sahələrdə bərqərar olmuş sabitlik hazırkı mürəkkəb qlobal konyunkturada dövlət başçımızın apardığı xarici siyasətə güc qazandıran faktorlar kimi bu təhlillərdə diqqətləri cəlb etməkdədir. Şübhəsiz, dünya siyasətinə yön verən böyük dövlətlərin və onların liderlərinin ambisiyaları, konkret olaraq onların ölkəmizlə münasibətdə tutduqları mövqelərinə qarşı adekvat siyasət aparılması, bu mənada, Prezident cənab İlham Əliyevin gündəliyində əsas yer tutur.

Hazırkı mövcud regional və qlobal geosiyasi reallığa baxdıqda ilk olaraq Azərbaycanla dost və qardaş olan dövlətlərin sayının çoxalması və ölkəmizin onlarla girdiyi qarşılıqlı siyasi və iqtisadi münasibətlərdə xüsusi çəkisinin sürətlə artmasını görə bilərik. Dünyanın ən güclü iqtisadi və hərbi gücü ABŞ-da respublikaçıların təmsilçisi D.Trampın yenidən hakimiyyətə gəlməsi ilə bundan əvvəlki prezident dövründə ölkəmizə qarşı aparılmış qərəzli münasibətlərə yenidən baxılması perspektivləri, bu mənada, gözlənilən ciddi geosiyasi dəyişiklik kimi bizi də dərindən maraqlandırır. Belə ki, həmin dövrdə Azərbaycanın qarşılaşdığı haqsız ikili standartlar və göstərilən nankorluğa qarşı dövlət başçımızın sərgilədiyi sərt mövqe ölkəmizin nüfuzunun və iqtisadi maraqlarının qorunmasına yönəlməklə bu gün təkcə ABŞ-ya deyil, onun müttəfiqi və ona qarşı olan digər güclərə də ciddi bir xatırlatmadır. Ölkəmizə qarşı çirkin qarayaxmaları, xüsusən ərazi bütövlüyümüzün tam bərpasından sonra ağlı-qaralı bütün hay sevdalılarının qopardığı hay-həşiri yada saldıqda xüsusən ötən 4 ildə dövlət başçımızın belə mürəkkəb geosiyasi vəziyyətdə apardığı uğurlu siyasətin dəyərini bir daha görmüş oluruq. Bu baxımdan hələ ABŞ-dakı andiçmə mərasimindən bir ay ötməmiş buraya səfər etməyi planlayan Paşinyanın qoca Baydenin gedərayaq yıxıla-dura Ermənistanla bağladığı müqavilələri pozmamasını yeni prezidentdən necə xahiş edəcəyi və komandasında ermənipərəst şəxslərin də az olmadığı kapitalist Trampın buna hansı reaksiya verəcəyini zaman göstərəcək.

Sərhədlərin qarışıq, rənglərin isə daha qarma-qarışıq olduğu müasir geosiyasi xəritə qarşısında kimin kimə inandığını, kimin hansı dinə qulluq etdiyini vaxtında çözmək üçün dövlətlərin tarixinə və onların liderlərinin fərdi tarixçəsinə bələd olmaq, münaqişələrdən bəhrələnən ölkələrin maraqlarını bilmək lazımdır. Bu mənada, Avropa İttifaqı rəsmilərinin ölkəmizə qarşı yönəlmiş dırnaqarası binokl diplomatiyasına qarşı dövlət başçımızın sərt mövqeyinə qoca qitənin diplomatları hamıdan yaxşı bələddirlər. Prezidentimiz dəfələrlə bəyan etmişdir ki, Avropa İttifaqı rəsmilərinin belə binokl şousu ədəbsiz davranış kimi sonda onların adına xələl gətirir. Doğrudan da, bunun başqa bir adı yoxdur. Qarabağa Bakıdan səfər edib buradakı reallıqları görmək əvəzinə qorxaqca Ermənistanla sərhəddən Azərbaycanı binoklla izləmək, yumşaq desək, qeyri-dost davranış kimi, sadəcə, təəssüf edilə bilər. Hər halda sağlam dünyanın ziddinə olaraq insanlarının sosial həyatında rənglərin də bir-birinə qarışdığı ürəkbulandırıcı qoca Avropadan belə hiyləgər münasibətləri də görmək təəccüblü olmamalıdır.

Müasir qlobal geosiyasi səhnədə yol-nəqliyyat, kommunikasiya və logistika məsələləri üzərində ciddi oyunlar qurulmaqda, normal dövlətlər bir-biri ilə qarşılıqlı faydalı əlaqələr yaratmaqdadır. Son onilliklər ərzində dünyada baş verən münaqişə və nifrət zəminində yolkəsənləri artıq dünya yaxşı tanıdığından dörd istiqamətdə Azərbaycanı kəsib keçən kommunikasiya xətlərinə olan maraqlar ölkəmizin geosiyasi aktor kimi də nüfuzunu artırır. Şimal-Cənub və Şərq-Qərb dəhlizlərində mühüm tranzit mövqe tutan Azərbaycan bunu digərlərinə qarşı bir sanksiya aləti deyil, tam əksinə, hər kəsin qazana biləcəyi, xüsusən də dayanıqlı inkişaf prinsiplərinə uyğun olaraq daha az karbon tullantılı və daha çevik logistika xidmətləri verə bilən bir qovşaq fürsəti kimi hər kəsə təklif edir. Ermənistanın ikiqəpiklik uydurma “sülh kəsişməsi” layihəsinin əksinə olaraq Azərbaycanın Şanxaydan Londona uzanan Orta Dəhliz üzərində inşa etdiyi etibarlı körpülər təkcə ölkələrarası münasibətlərin deyil, həm də mədəniyyətlərarası dialoqun da möhkəm sütunlarından biri kimi diqqətləri cəlb edir.

Bu mənada, təkcə Cənubi Qafqazda deyil, bütün yaxın regionlarda daşları yerindən oynadaraq yeni geosiyasi mənzərə formalaşdırmış 44 günlük Vətən müharibəsindən sonra Azərbaycanı Azərbaycanla birbaşa birləşdirəcək və Naxçıvanın blokadasına, nəhayət ki, son qoyacaq olan Zəngəzur dəhlizinə qarşı çıxan qüvvələrə Prezident cənab İlham Əliyevin tutarlı arqumentlərinin arxasında məhz tarixi gerçəkliklərə və müasir reallıqlara dayanan dərin təhlil dayanır. Bu təhlillərdə zaman-zaman xalqımızın qanını tökmüşlərə onların keçmişinin xatırladılmasından tutmuş müasir dövrdə mürəkkəb geosiyasi şəraitdə düşdükləri çətin vəziyyətə görə Azərbaycana edilən müraciətlərə qarşı göstərilən münasibətlərə qədər hər detal açıqca görünür. Daha da dəqiq desək, 1920-ci ildə Moskvanın Azərbaycan xalqına qarşı necə bir cinayət törədərək Qərbi Zəngəzuru Ermənistana hədiyyə etməsini, eləcə də bundan əvvəl və bundan sonrakı tarixi cinayətləri də vaxtı gələndə ünvanına deməyi də dövlət başçımız yaxşı bacarır. Prezidentimizin ifadəsi ilə desək: ***“Zəngəzur dəhlizi layihəsi Azərbaycan tərəfindən irəli sürülmüşdür. İkinci Qarabağ müharibəsindəki Zəfərimizdən sonra bu məsələ beynəlxalq gündəliyə, beynəlxalq leksikona salındı və bu gün Zəngəzur dəhlizi artıq dünyada qəbul edilmiş ifadədir, qəbul edilmiş termindir. Əlbəttə ki, biz bu dəhlizin açılması üçün praktiki addımlar atırıq. Düzdür, Ermənistan tərəfi dörd ildən çoxdur ki, bu məsələ ilə bağlı qeyri-konstruktiv mövqe sərgiləyir, faktiki olaraq 10 noyabr kapitulyasiyasından sonra üzərinə götürdüyü öhdəlikləri yerinə yetirmir. Orada açıq-aydın göstərilirdi ki, Azərbaycanın əsas hissəsi ilə onun ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat bağlantısı olmalıdır”.*** Göründüyü kimi, Zəngəzuru heç zaman unutmayacağımızı bir strateji xətt kimi hər kəs yaxşı bilməlidir. Çünki Azərbaycan xalqı Qarabağ xanının öldürülməsindən tutmuş ermənilərin çar Rusiyası tərəfindən Azərbaycan ərazisinə köçürülməsini, dırnaqarası “Dağlıq Qarabağ Muxtar Vilayəti”nin Azərbaycan ərazisində yaradılmasını, 20 Yanvar qırğınını, torpaqlarımızın 1990-cı illərin əvvəllərində işğalını və Xocalı soyqırımının səbəbkarlarını yaxşı bilir.

Cənubi Qafqaz müasir geosiyasi maraqların tam kəsişmə nöqtəsində olmaqla Ukrayna və Yaxın Şərqdə və ya dünyanın digər münaqişə ocaqlarında mövqelərini itirən tərəflərin öz varlığını yenidən ortaya atması baxımından əlverişli məkandır. Məhz quru xəzəl kimi hər küləyin qarşısında sağa-sola yellənən Ermənistan ucbatından böyük dövlətlər Cənubi Qafqazı əlinə almağa çalışmaqla bu ölkəni yeni münaqişələr üçün ehtiyat kart kimi istifadə etməyə çalışırlar. Amma istənilən erməni liderinə xas olan faşizm iddialarını ifşa edən Prezidentimiz Cənubi Qafqazın burada yaşayan xalqların evi olduğunu dəfələrlə vurğulamaqla Azərbaycanın da bölgənin aparıcı ölkəsi kimi, məsuliyyət nöqteyi-nəzərindən xüsusi çəkiyə malik olduğunu burada qarışıqlıq salmaq istəyənlərin diqqətinə çatdırmışdır.

Ətrafımızdakı geosiyasi vəziyyətə tam nəzarət edən Azərbaycan isə antiterror əməliyyatından sonra Xankəndidə yaxalanmış müharibə canilərini mühakimə etməklə kim olursa-olsun ədalətsiz oyunları ilə on minlərlə insanın ölümünə, yüz minlərlə insanın fəlakətinə səbəb olan hər bir kəsin sonunda məhkəmə qarşısında cavab verəcəyini bəyan etməkdədir. Bu bəyanatla dünya, xüsusən də özlərini dünyadan böyük hesab edən beş böyüklər görürlər ki, əgər bir zamanlar əkdikləri qan, zülm və işğal toxumları düyünlənib boğazlarına keçirsə, bu heç də yeni bir geosiyasi oyun deyil, uca ədalətin gec, amma güc təntənəsidir. Hazırda özünün ən güclü dövrünü yaşayan suveren Azərbaycan Respublikası bu təntənəyə şahid olmaqla dünyanı da ədalətə çağırır.

Əli CABBAROV



# Naxçıvanın muxtariyyəti tarixi zərurət, tarixi nailiyyət

*(əvvəli 1-ci səhifədə)*

Üç il sonra, 1924-cü il fevralın 9-da isə Moskva və Qars müqavilələri əsasında Naxçıvan Muxtar Respublikası yaradıldı. Naxçıvanın muxtariyyət statusunun hüquqi bazası 1924-cü ilin aprelində təsdiq edilmiş Əsasnamə və 1926-cı il aprelin 18-də qəbul olunmuş Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının birinci Konstitusiyası ilə təsbit edildi. Naxçıvan Muxtar Respublikasının yaradılması prosesini şərh edən Ümummilli Lider Heydər Əliyev həmin tarixi hadisəni çətin məqamda əldə olunmuş mühüm nailiyyət kimi dəyərləndirib: ***"Naxçıvanın muxtariyyəti mühüm hadisədir. Bu çətin bir dövrdə, böyük bir mübarizənin nəticəsi olubdur. Naxçıvanın statusunu qoruyub saxlamaq üçün Moskva müqaviləsinin və xüsusən Qars müqaviləsinin böyük əhəmiyyəti olubdur. Naxçıvan Azərbaycanın əsas torpağından ayrı düşdüyünə görə, Naxçıvanın bütövlüyünü, təhlükəsizliyini, dövlətçiliyini, muxtariyyətini gələcəkdə də təmin etmək üçün Qars müqaviləsi bizim üçün çox böyük, əvəzi olmayan bir sənəddir. Belə ağır şəraitdə Naxçıvanın yaşamasının, inkişaf etməsinin əsas şərtlərindən biri də odur ki, Naxçıvana o vaxt muxtariyyət hüququ veriblər".***

**Ümummilli Liderlə naxçıvanlıların həmrəyliyi muxtar respublikanı qorudu**

Naxçıvanın böyük zəhmətlər hesabına qazanılan muxtariyyəti 70 illik sovetlər dönəminin bitməsindən sonra ötən əsrin 90-cı illərində itirilmək təhlükəsi ilə üzləşdi. Belə ki, 1990-cı ildə Bakıda 20 Yanvar hadisələri törədilən zaman ermənilər Sədərəyi hədəfə aldılar. Məqsəd, təbii ki, muxtar respublikanın işğalı idi. Ancaq əhalinin birliyi, bərabərliyi qarşısında heç bir məkrli plan işləmədi. Naxçıvanın bütün ərazilərindən insanlar Sədərəyin müdafiəsinə yollandı. Sakinlər evlərini tərk etmədi, hər kəs əlindən gələn imkanlar hesabına yurdunu qorumaq üçün səfərbər oldu. İgid övladlar böyük şücaət və qəhrəmanlıq göstərərək erməni cəlladlarının muxtar respublika ilə bağlı niyyətlərini ürəklərində qoydular.

1990-1993-cü illərdə muxtar respublika əhalisi mübarizlik, şücaət göstərdi. Uzaqgörən siyasətçi Ulu Öndər Heydər Əliyevin Sədərəyin düşməndən qorunmasında böyük tarixi xidmətləri, əvəzolunmaz rolu oldu. Naxçıvanın hər yerindən Vətənin müdafiəsinə üz tutanların təşkilatlanmasını uğurla həyata keçirən Ümummilli Liderin həmin illərdə bir neçə dəfə rayona gəlişi hər kəsi ruhlandırdı, sabaha inamını artırdı. Dahi öndər 1990-cı il Sədərək döyüşlərinin Naxçıvanın muxtariyyət statusunun qorunmasındakı rolunu xüsusi vurğulayıb: ***"Ermənistanın apardığı təcavüzkarlıq siyasəti nəticəsində vaxtilə Azərbaycanı Naxçıvanla bağlayan dəmiryol xətləri və avtomobil yolları kəsilmiş, Naxçıvana Azərbaycandan təcrid olunmuş vəziyyətdə, blokada şəraitində yaşamaq taleyi qismət olmuşdur. Məhz belə ağır şəraitdə Naxçıvan əhalisi böyük mərdlik və yenilməzlik nümayiş etdirərək Azərbaycanın bu qədim torpağını ermənilərin işğalı təhlükəsindən xilas etdi və onun muxtariyyət statusunu qoruyub saxladı".***

1990-cı ilin əvvəllərində muxtar respublikada vəziyyət olduqca çətin, dözülməz hal almışdı. Naxçıvanı ağır blokada şəraitindən çıxarmaq, insanları aclıqdan, səfalətdən qurtarmaq üçün gecəsini gündüzünə qatan Ulu Öndər Heydər Əliyev çıxış yolunu Türkiyə ilə əlaqələrin siyasi, iqtisadi cəhətdən daha da möhkəmləndirilməsində gördü. Uzaqgörən siyasətçi bu məqsədlə 1992-ci il martın 22-dən 24-dək Türkiyəyə səfər etdi və səfər çərçivəsində "Azərbaycana bağlı Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında əməkdaşlıq protokolu" imzalandı. Ümummilli Liderin qardaş ölkəyə səfərindən iki ay sonra, daha dəqiq desək, 1992-ci il mayın 28-də Sədərək-Dilucu (Ümid) körpüsü istifadəyə verildi. İnsanların sosial rifah halının yaxşılaşdırılmasına, muxtar respublikanın dünyaya tanıdılmasına yol açan bu addım, eyni zamanda həmin dövrdə Sədərək və Şahtaxtı gömrük-keçid məntəqələrinin fəaliyyətə başlaması Naxçıvanın Türkiyənin yaxın vilayətləri ilə iqtisadi, ticarət əlaqələrinin genişlənməsinə, beynəlxalq daşımalara qoşularaq nəqliyyat imkanlarının artmasına da təkan verdi. Beləliklə, ötən əsrin 90-cı illərinin əvvəllərində ölkəmizi müstəqilliyə aparan yolun təməl daşları atıldı. Naxçıvanda həm də iki qardaş – Türkiyə və Azərbaycanın əlaqələrində yeni mərhələnin körpüsü salındı. Bununla muxtar respublikanın sosial-iqtisadi inkişafında yeni dövrün başlanğıcı qoyulmuş oldu.

Ümummilli Liderimiz Heydər Əliyevin ölkəmizdə ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra digər bölgələr kimi, muxtar respublika da inkişaf, tərəqqi yoluna qədəm qoydu. Naxçıvanın muxtariyyət statusunun hüquqi cəhətdən möhkəmləndirilməsində bu il 30 illiyi tamam olan, 1995-ci il noyabrın 12-də qəbul edilmiş müstəqil Azərbaycan Respublikası Konstitusiyasının mühüm rolu oldu. Konstitusiyanın 134-cü maddəsinin ilk bəndində deyilir: *"Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının tərkibində muxtar dövlətdir. Naxçıvan Muxtar Respublikasının statusu bu Konstitusiya ilə müəyyən edilir. Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsidir".* Naxçıvan Muxtar Respublikasının 1998-ci ildə qəbul olunan Konstitusiyasında Naxçıvanın Azərbaycan Respublikası tərkibində demokratik, hüquqi, dünyəvi muxtar respublika olduğu təsbit edilib.

**Naxçıvan üçün böyük prioritetlər – Zəngəzur dəhlizi, AİZ, "yaşıl enerji"**

Görkəmli dövlət xadimi Heydər Əliyevin əsasını qoyduğu siyasi xətti dövrün reallıqlarına uyğun uğurla davam etdirən Prezident cənab İlham Əliyev ölkəmizin bütün bölgələri kimi, Naxçıvanın da inkişafını diqqətdə saxlayır. Ötən illərdə muxtar respublikanın paytaxtından ta ki ucqar dağ kəndlərinədək müasir infrastruktur quruculuğu reallaşdırılıb, elektrik, qaz xətləri çəkilib. Vaxtilə işıqsız, enerjisiz qalan Naxçıvan bu gün enerji ixracatçısına çevrilib, "yaşıl enerji zonası" statusuna layiq görülüb. Qürurverici haldır ki, ölkəmizin 1990-cı ilin əvvəllərində əsl müstəqilliyə qovuşması prosesində əhəmiyyətli yer tutan Naxçıvan Azərbaycanın haqq savaşına çıxdığı 44 günlük Vətən müharibəsində də mühüm rol oynadı, muxtar respublikadan olan hərbçilər torpaqlarımızın azadlığının təminində böyük şücaət və qəhrəmanlıq nümunəsi göstərdilər.

2022-ci ilin sonlarından etibarən Naxçıvan Muxtar Respublikasının idarəetmə strukturunda aparılan islahatlar çərçivəsində qədim diyar müasir yüksəlişinin yeni mərhələsinə qədəm qoyub, idarəçiliyin bütün sahələrində şəffaflaşma prosesi aparılıb, ölkə sisteminə inteqrasiya uğurla reallaşdırılıb. Dövlət başçısı 2023-cü il iyunun 5-də "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramının təsdiq edilməsi haqqında" Sərəncam imzalayaraq Naxçıvanın tərəqqisi naminə yeni yol xəritəsini müəyyənləşdirib. Dövlət Proqramının icrası ilə yaxın gələcəkdə Naxçıvanın azad iqtisadi zonaya çevrilməsi, burada fəaliyyət göstərən şirkətlər üçün vergi və gömrük güzəştləri, daşınma və digər sahələrdə müvafiq stimullaşdırma tətbiq edilməsi əsas məqsədlərdəndir. Bu xüsusda cari il yanvarın 27-də Azərbaycan Respublikası İqtisadi Şurasının sədri, Baş nazir Əli Əsədovun rəhbərliyi ilə keçirilən İqtisadi Şuranın iclasının gündəliyinə də salınan və əsas müzakirə mövzularından olan Naxçıvanda Azad İqtisadi Zonanın (AİZ) yaradılması muxtar respublika iqtisadiyyatı üçün böyük perspektivlər vəd edir.

Dövlət başçısının 2023-cü il 30 dekabr tarixli "Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi haqqında" Sərəncamı ilə ötən il muxtar respublikanın 100 illiyi ilə bağlı silsilə tədbirlər keçirilib, yubiley geniş şəkildə qeyd olunub. Sərəncamda deyilir: *"Naxçıvan Muxtar Respublikası bu gün Dövlət proqramlarını və infrastruktur layihələrini uğurla gerçəkləşdirir, ölkənin iqtisadi qüdrətinin artırılmasında və intellektual potensialının gücləndirilməsində yaxından iştirak edir. Hazırda Naxçıvan beynəlxalq miqyaslı mötəbər tədbirlərin ardıcıl keçirildiyi məkanlardandır. Azərbaycanın ətraf mühitin mühafizəsinə yönəlmiş fəaliyyəti çərçivəsində muxtar respublika "yaşıl enerji zonası" elan olunmuşdur. Naxçıvan Muxtar Respublikası ilə nəqliyyat imkanlarının genişləndirilməsi istiqamətində işlər davam etdirilir".* Bu fikirlərdən yola çıxaraq qeyd edə bilərik ki, ölkə Prezidentinin ***"Naxçıvanla da bağlı böyük planlar var"*** ideyası üzərində Qarabağ və Şərqi Zəngəzurla yanaşı, Naxçıvanı da "yaşıl enerji zonası" elan etməsi muxtar respublikanın potensial imkanlarından maksimum yararlanmaqla sosial-iqtisadi inkişafı üçün qarşıda mühüm vəzifələr qoyub. Burada günəş və külək elektrik stansiyalarının inşası istiqamətində böyük layihələrin icrası planlaşdırılıb. Eyni zamanda 2023-cü il sentyabrın 25-də Azərbaycan və Türkiyə prezidentlərinin iştirakı ilə təməli qoyulan İğdır-Naxçıvan Qaz Boru Xəttinin də tikintisi uğurla başa çatıb, kəmərin yaxın gələcəkdə istifadəyə verilməsi nəzərdə tutulur. Həmçinin Vətən müharibəsindən sonra imzalanan üçtərəfli bəyanata əsasən yeni reallıqlar fonunda Zəngəzur dəhlizi məsələsi gündəmdədir və Naxçıvanın ölkəmizin digər ərazisi ilə nəqliyyat əlaqələrinin bərpası onun iqtisadi cəhətdən güclənməsinə, əhalinin rifahının yüksəlməsinə təkan verəcək.

Bəli, bu gün 101 yaşını qeyd edən Naxçıvan Muxtar Respublikası Ümummilli Liderimiz Heydər Əliyevin ideyaları işığında, ölkə başçısı cənab İlham Əliyevin diqqət və qayğısı ilə böyük inkişaf dövrünü yaşayır. Əminik ki, Dövlət Proqramında nəzərdə tutulan prioritetlərin icrası və Zəngəzur dəhlizinin açılması ilə yaxın gələcəkdə bu diyarın ölkəmizin iqtisadi qüdrətini artırmasındakı çəkisi daha da artacaq, Naxçıvan Azərbaycan üçün mühüm ticarət əlaqələrinin kəsişdiyi məkan kimi də tanınacaq.

**Nail ƏSGƏROV**

# Ali Məclisin 2025-ci il yaz sessiyası açılıb



Fevralın 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini Bəxtiyar Məmmədovun sədrliyi ilə yeddinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2025-ci il yaz sessiyasının ilk plenar iclası keçirilib.

Ali Məclis sədrinin birinci müavini Bəxtiyar Məmmədov sessiyanı açıq elan etdikdən sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

İclasın gündəliyinə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qanunvericilik işləri planının təsdiqi, Ali Məclisin Hesablayıcı və İntizam komissiyalarının yaradılması məsələləri daxil edilib.

Gündəlik təsdiq olunduqdan sonra “Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2025-ci il yaz sessiyasının qanunvericilik işləri planı haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qərarı səsə qoyularaq qəbul edilib.



İclasın gündəliyində duran ikinci və üçüncü məsələlərlə bağlı Ali Məclis sədrinin birinci müavini Bəxtiyar Məmmədov qeyd edib ki, Daxili Nizamnaməyə əsasən Ali Məclisin yaz sessiyasının birinci iclasında Hesablayıcı və İntizam komissiyaları yaradılmalıdır. Həmin komissiyalar Ali Məclisin deputatlarından 1 il müddətinə 5 üzvdən ibarət tərkibdə seçilir.

Müzakirə olunan məsələlərlə bağlı hazırlanmış “Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hesablayıcı komissiyasının yaradılması haqqında” və “Naxçıvan Muxtar Respublikası Ali Məclisinin İntizam komissiyasının yaradılması haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qərarları oxunduqdan sonra ayrı-ayrılıqda səsə qoyularaq qəbul edilib.

Bununla da Ali Məclisin yaz sessiyasının ilk plenar iclası başa çatıb.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Naxçıvanda əmanət qoyuluşu və nağdsız dövriyyədə də müsbət dinamika davam edir

1 yanvar 2025-ci il tarixə muxtar respublikada fəaliyyət göstərən banklar tərəfindən əhalidən cəlb edilmiş müddətli əmanətlərin həcmi 25 milyon 500 min manat təşkil etmişdir ki, bu da 1 yanvar 2024-cü ilin göstəricisi ilə müqayisədə 8 milyon 677 min manat və ya 1,5 dəfə çoxdur. Cəlb edilmiş bu növ əmanətlərin 94,4 faizi və ya 24 milyon 60 min manatı milli valyutada, 5,6 faizi və ya 1 milyon 440 min manatı isə xarici valyutada olan əmanətlərin payına düşmüşdür ki, milli valyutada cəlb edilmiş əmanətlərin həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 8 milyon 178 min manat və ya 1,5 dəfə, xarici valyutada cəlb edilmiş əmanətlərin həcmi isə 499 min manat və ya 1,5 dəfə çox olmuşdur. Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsindən verilən məlumata görə, 2024-cü ilin yanvar-dekabr ayları ərzində regionda fəaliyyət göstərən bank və bank filiallarının emissiya etdiyi ödəniş kartları vasitəsilə ölkədaxili və ölkəxarici nağdsız əməliyyatların və onların regiondakı ödəniş xidməti şəbəkəsi vasitəsilə həyata keçirilən nağdsız əməliyyatların həcmi, ümumilikdə, 1 milyard 26 milyon 328 min manat təşkil etmişdir ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 408 milyon 733 min manat və ya 1,7 dəfə çoxdur.

# “Rehabus” layihəsinə start verilib




Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Tibbi Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin “Rehabus” layihəsinə start verilib.

1 fevral 2025-ci il tarixdən icrasına başlanılan layihə əlilliyi olan şəxslərin ambulator reabilitasiya xidmətlərinə əlçatanlığına yönəlib. Reabilitasiya avtobusu müvafiq kateqoriyadan olan şəxslərin reabilitasiya müəssisələrinə asan, rahat şəkildə çatmasını təmin edir.

Reabilitasiya avtobusu ilkin olaraq Babək rayonunun kəndlərindən əvvəlcədən müəyyən edilən ünvanlardan əlilliyi olan şəxsləri götürərək Naxçıvan şəhərində yerləşən Uşaq Bərpa və Əlillərin Bərpa Mərkəzinə çatdırır. Reabilitasiya proseduru bitdikdən sonra isə onları yenidən ünvanlarına qaytarır.

# Muxtariyyətin tarixi ilə bağlı iki əsər ictimaiyyətə təqdim olundu

AMEA Naxçıvan Bölməsində AMEA-nın həqiqi üzvü, tarix elmləri doktoru, professor İsmayıl Hacıyevin Naxçıvan Muxtar Respublikasının 100 illiyi çərçivəsində çap olunmuş “Naxçıvan Muxtar Respublikasının yaranması və inkişaf tarixi” monoqrafiyasının və “Möhtəşəm minilliklərin şanlı 100 ili” kitabının təqdimatı keçirilib.



Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun təşkilatçılığı ilə baş tutan mərasimi giriş sözü ilə AMEA-nın müxbir üzvü, professor Vəli Baxşəliyev açıb.

Professor çıxışı zamanı akademik İsmayıl Hacıyevin elmi yaradıcılığında Naxçıvanın muxtariyyəti məsələsinin yerindən, alimin uzunmüddətli və sistemli araşdırmalar nəticəsində aşkara çıxardığı faktlardan söz açıb.

Azərbaycan Respublikası Prezidentinin “Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi haqqında” 2023-cü il 30 dekabr tarixli Sərəncamını xatırladan alim bildirib ki, rəhbərlik etdiyi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutu əməkdaşlarının Sərəncama uyğun olaraq bir sıra əsərləri çap olunmuşdur. Akademik İsmayıl Hacıyevin “Naxçıvan Muxtar Respublikasının yaranması və inkişaf tarixi” monoqrafiyasının və “Möhtəşəm minilliklərin şanlı 100 ili” kitabı da həmin əsərlərdəndir. Sözügedən əsərlərdə muxtar respublikanın keçdiyi tarixi inkişaf yolu daha geniş öyrənilmiş, elmi-monoqrafik tədqiqatların əhatə dairəsi genişləndirilmişdir. Hər iki əsər Naxçıvanın ötən yüzillik tarixinin öyrənilməsi baxımından xüsusi əhəmiyyətə malikdir.

Vəli Baxşəliyev çıxışının sonunda müəllifi təbrik edib, ona yeni yaradıcılıq uğurları arzulayıb.

Daha sonra Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun elmi katibi, tarix üzrə fəlsəfə doktoru Yaşar Rəhimovun “Naxçıvan tarixinin öyrənilməsinə dəyərli töhfə”, Yeni və ən yeni tarix şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru Musa Quliyevin “Möhtəşəm minilliklərin şanlı 100 ili” əsəri haqqında söz” başlıqlı məruzələrində hər iki əsər geniş şərh olunub, Bölmənin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev tədbirdə çıxış edərək hər iki əsəri Naxçıvan tarixinin öyrənilməsinə, Naxçıvanşünaslığa töhfə kimi qiymətləndirib.

Sonda kitabların müəllifi – akademik İsmayıl Hacıyev çıxış edərək Naxçıvanın muxtariyyət məsələsi, muxtariyyət statusunun verilməsinin tarixi-hüquqi əsasları barədə danışıb. Tarixi zərurətdən doğan muxtariyyət statusunun bölgənin Azərbaycanın tərkibində qorunub saxlanılmasındakı önəmini qeyd edib. Naxçıvanın muxtariyyət statusu barədə tədqiqat aparmış alimlər, onların irəli sürdükləri elmi fikir və mülahizələri diqqətə çatdırıb.

Çıxışının sonunda İsmayıl Hacıyev tədbirin təşkilinə, əməyinə, elmi araşdırmalarına göstərilən diqqətə görə minnətdarlığını bildirib.

# Naxçıvanda 50 yeni STEAM kabineti yaradılacaq




Dövlət başçısının müvafiq Sərəncamı ilə təsdiq olunan “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”na uyğun olaraq yaxın günlərdə muxtar respublikanın ümumi təhsil müəssisələrində 50 yeni STEAM kabineti qurulacaq.

Həmçinin mövcud 154 kabinet STEAM avadanlıqları ilə zənginləşdiriləcək.

Bu məqsədlə STEAM kabinetlərinin qurulması nəzərdə tutulan məktəblərin STEAM müəllimlərinin bilik və bacarıqlarının artırılması üçün beynəlxalq təlimçilər tərəfindən 3 günlük təlim təşkil olunub.

Məlumat üçün bildirək ki, keçirilən təlim Dövlət Proqramının müvafiq bəndinə uyğun olaraq STEAM avadanlıqlarının alınması ilə bağlı keçirilmiş satınalma müsabiqəsində qalib olan təchizatçı tərəfindən təşkil edilib.

# Sevgi və dəstək ünvanı

## *Naxçıvanda “Autizmli Uşaqlara Dəstək” İctimai Birliyi yaradılıb*

Naxçıvanda autizm spektr pozuntusundan əziyyət çəkən uşaqların və onların ailələrinin sosial problemlərinin həlli istiqamətində mühüm bir addım atılıb. Bu yaxınlarda “Autizmli Uşaqlara Dəstək” İctimai Birliyi təsis edilib.

Autizm spektr pozuntusu ilə mübarizə aparan ailələr üçün yeni bir ümid qapısı olan ictimai birliyin əsas məqsədi autizmli uşaqların cəmiyyətə inteqrasiyasını təmin etmək, onların təhsil və tibbi xidmətlərə çıxışını asanlaşdırmaqdır. Çünki hər bir autizmli uşaq xüsusi dəstək və sevgi tələb edir və yaradılan QHT məhz bu ehtiyacı ödəmək üçün nəzərdə tutulub. Bununla yanaşı, təşkilat ailələrə psixoloji dəstək göstərmək, cəmiyyətdə autizm haqqında məlumatlılığı artırmaq və onlara dayaq olmaq məqsədi daşıyır. Elə bu məqsədlə də “Autizmli Uşaqlara Dəstək” İctimai Birliyi qeyri-hökumət təşkilatında fəxri və sadə üzvlük sistemi yaradılıb. Həmin üzvlüklərdən gələn maddi vəsaitlər autizmli uşaqların təlim və terapiya proseslərinə, onların sosial və emosional inkişafını dəstəkləyən tədbirlərin təşkilinə, valideynlər üçün maarifləndirici və dəstək proqramlarının həyata keçirilməsinə sərf olunacaq.



Müsahibim klinik psixologiya üzrə fəlsəfə doktoru, Modern Psixologiya Mərkəzinin və “Autizmli Uşaqlara Dəstək” İctimai Birliyinin təsisçisi Ayaz Seyidli deyir: “Biz yalnız autizmli uşaqların valideynlərinə deyil, bütün cəmiyyətə xidmət etməyə hazırıq. Çünki bu uşaqların cəmiyyətə inteqrasiyası, onların xüsusi istedadlarının üzə çıxarılması hamımızın borcudur. Biz fərqlilikləri zəiflik kimi yox, güc kimi qəbul etməyi öyrətmək istəyirik. Bu danılmaz bir faktdır ki, autizm xəstəlik deyil, bir fərqlilikdir. Təşkilatımız bu sahədə mühüm layihələr həyata keçirməyi planlaşdırır. Düşünürəm ki, bu QHT Naxçıvanda autizmli uşaqlar üçün daha yaxşı bir gələcəyin başlanğıcı ola bilər. Onların təhsilə, sosial həyata və ümumi cəmiyyətə inteqrasiyası üçün təşkilatımızın fəaliyyəti xüsusi əhəmiyyət daşıyır”.

Hər bir cəmiyyətin inkişafında onun həssas təbəqələrinə göstərdiyi qayğı mühüm rol oynayır. Autizmli uşaqların da istedadları və dünyanı zənginləşdirəcək unikal baxışları var. Naxçıvanda bu yeni təşkilatla birlikdə, cəmiyyət autizmli uşaqlara yeni gözlə baxmağa başlayacaq. Naxçıvan üçün bu, mənəvi bir irəliləyişdir.

Unutmayaq, bir uşağı dəyişdirmək bir ailəni dəyişmək deməkdir. Bir ailəni dəyişdirməksə bütöv bir cəmiyyəti dəyişə bilər. Autizmli uşaqlar üçün açılan bu qapı, ümid edirəm ki, heç vaxt bağlanmayacaq.

**Aygün RÜSTƏMOVA**

# AZƏRBAYCANIN sülh layihələri



Regional və planetar miqyasda ziddiyyətlərin artdığı, qlobal ekoloji problemlərin kəskinləşdiyi müasir dövrdə dövlətlərin dünyada davamlı sülh və iqtisadi-mədəni əlaqələr üçün həyata keçirdiyi hər bir layihə başəri əhəmiyyətli işlər olub, öz bəhrəsini təkcə bu gün üçün deyil, gələcək nəsillərin həyatı üçün də göstərəcəkdir. Xalqlar, dövlətlər arasında baş verən münaqişələrə son qoyulması ilə yanaşı, mövcud əlaqələri də qoruyub saxlamağa yönəlmiş ticarət, mədəniyyət, turizm, enerji, nəqliyyat, kommunikasiya, təhsil və idman sahəsindəki hər cür birgə əlaqələr, bu mənada, olduqca dəyərlidir. Müstəqil Azərbaycan Respublikasının bu gün Cənubi Qafqazda və geniş dünya coğrafiyasındakı müəllifi olduğu və qoşulduğu layihələr də xüsusi çəkisinə və əhəmiyyətinə görə seçilməklə, bütövlükdə, regionda sülh və təhlükəsizlik üçün qarant rolunu da oynayır.

İstənilən irimiqyaslı beynəlxalq layihələrin reallaşması üçün əsas şərtlərdən biri, bəlkə də, birincisi, dayanıqlı sülh və etibarlı tərəfdaşlıqdır. Bu mənada, SSRİ dağıldıqdan sonra Cənubi Qafqazda başladılmış separatizm və terrorizm hərəkətləri, konkret olaraq, ermənilərin Azərbaycan torpaqlarını işğal etmələri bu gözəl coğrafiyanın inkişafını on illər ərzində geriyə saldı və buradakı münaqişələrin bəziləri qonşu Gürcüstanda, təəssüf ki, hələ də davam edir. Bu baxımdan, otuz il Qarabağı işğal altında saxlamış Ermənistanın məğlubiyyəti ilə bu münaqişəyə son qoyulması Azərbaycanın qlobal sülhə verdiyi ən böyük töhfələrdən biridir. Belə ki, bu günlərdə ABŞ-da səfərdə olan Ermənistan baş nazirinin də 44 günlük müharibənin bu ölkədə ideoloji dəyişikliyə səbəb olduğunu bəyan etməsi, bu mənada, düşündürücüdür. Şübhəsiz, əsrlərlə utopik "böyük Ermənistan" xəstəliyinə yoluxmuş ermənilərin bu dəyişikliyə necə uyğunlaşacağı sual doğursa da, "dəmir yumruq"dan yedikləri nokaut zərbəsinin onların xəyallarını suya qərq etdiyi, hələlik, göz önündədir. Odur ki, dövlət başçımız Prezident cənab İlham Əliyevin dəfələrlə vurğuladığı kimi, Ermənistanın iki qəpik də dəyəri olmayan cəfəng layihələri, sadəcə, bir kağız parçasıdır və Azərbaycanın maraq göstərmədiyi hər hansı bir layihənin sonu olmayacaq.

Azərbaycanın isə sülh istiqamətində təklif etdiyi bütün layihələr ədalətli və perspektivlidir. Belə ki, 1994-cü ildə imzalanmış "Əsrin müqaviləsi"ndən başlayaraq ölkəmizdə həyata keçirilən bütün irimiqyaslı iqtisadi layihələrin ölkəmizlə bərabər digər qonşu və qonşu olmayan ölkələrə də nə qədər divident qazandırdığı göz önündədir. Təkcə Gürcüstanı götürsək, bu ölkə özünün tranzit imkanlarını yaxşı dəyərləndirib, qonşuları ilə xoşniyyətli əməkdaşlıq təklif etdiyi üçün Azərbaycanın zəngin enerji ehtiyatları ilə özünün enerji təhlükəsizliyini təmin etmiş, enerji ehtiyacının 80 faizə qədərini ölkəmizə bağlamaqla, əslində, daxili sabitliyini də qarant altına almışdır. Dünyada enerji böhranlarının yaşandığı, Rusiya kimi enerji resurslarını az qala bir strateji silah kimi önə sürən dövlətlər olduğunu nəzərə alsaq, Azərbaycanın enerji, kommunikasiya və digər layihələrinin bu ölkə üçün indi nə dərəcədə həyati olduğunu görə bilərik. Artıq üçüncü ilinə qədəm qoymuş Rusiya-Ukrayna müharibəsi fonunda Avropada gərginləşmiş enerji böhranına qarşı Azərbaycanın 10-a yaxın Cənubi və Mərkəzi Avropa ölkəsi üçün sabit enerji təminatı rolunu oynaması bu çətin dövrdə ölkəmizin dəyərini bir daha göstərir.

Ənənəvi neft ölkəsi Azərbaycanın dünyaya təklif etdiyi sülh layihələrinin digər bir əhəmiyyəti yenə də ənənəvi olaraq bir-biri ilə yola getməyən qlobal Şimalla Cənub və Qərblə Şərq arasında uzlaşdırıcı mövqeyindən qaynaqlanan körpü rolunu oynamasıdır. Bu rolu yüksək qiymətləndirən dövlət başçımızın da vurğuladığı kimi, Avrasiyanın əvəzolunmaz nəqliyyat mərkəzlərindən birinə çevrilmiş olan Azərbaycan bu gün tarixi İpək Yolu üzərindəki mühüm mövqeyini daha da genişləndirmiş, Cənubi Qafqazda bütün regional layihələrə əngəl olmuş Ermənistan isə bundan sonra da dalan ölkə kimi davam edəcək və onların tranzit ölkəyə çevrilmə arzuları elə onların gözlərində qalacaq. Halbuki "sülh kəsişməsi" adı altında planlar quran haylar ölkəmizin son 20 ildə həyata keçirdiyi yol-infrastruktur layihələri xəritəsi önündə dayanıb düşünsələr, bunun reallaşması üçün Ermənistanın ən azı 200 ilə ehtiyacı olduğunu etiraf edərlər. Belə ki, son 20 il ərzində Azərbaycanda tikilib və təmir edilmiş 21 min kilometr avtomobil yolu ilə ekvatorun yarısını qət etmək mümkündürsə, bu, ölkəmizin layihələrinə qarşı çıxanlara ciddi cavabdır. Prezident cənab İlham Əliyevin də bu xüsusda qeyd etdiyi kimi, Ermənistana heç bir pay düşməyən və bu gün böyük türk birliyinin mühüm nəqliyyat arteriyasına çevrilmiş olan Bakı-Tbilisi-Qars dəmir yolunun inşasına bir zamanlar qarşı çıxan ABŞ və onun Avropadakı müttəfiqləri də bu gün bu yola daha çox maraq göstərirlər.

Bu gün ekoloji təhlükələr və davamlı inkişaf problemləri bəşəriyyətin gələcəyini düşündürən məsələlərdəndir. "Yaşıl keçid", "yaşıl enerji" istehsalı və "yaşıl logistika" sahəsində qarşısına ciddi vəzifələr qoymuş Azərbaycan Respublikası həyata keçirdiyi bütün yaşıl layihələrlə də qlobal sülhə öz töhfəsini verməkdədir. İqlim dəyişikliyinin səbəb olduğu kataklizmlərin önünə keçmək, onları yaradan mənfi amillərə qarşı vaxtında tədbirlər görmək, bu mənada, hazırkı kommersiya maraqlarından imtina edərək gələcəyi düşünmək cəsarəti və fədakarlığı tələb edir. Lakin dünyanı sümürməyə adət etmiş və bununla da nəhəng iqtisadiyyat qurmağı bacarmış böyük güclər bu fədakarlıqdan uzaqda olsalar da, Azərbaycan üzərinə düşən iqlim öhdəliklərini layiqincə yerinə yetirmiş, bu sahədə işləri əzmlə davam etdirməkdədir. Ötən il COP29 kimi planetar əhəmiyyətli tədbirə uğurla ev sahibliyi edərək bir sıra mühüm ilklərə imza atmış Azərbaycanda karbon emissiyalarını azaldacaq olan nəqliyyat layihələri, Bakıda, eləcə də Naxçıvanda və digər şəhərlərimizdə elektrikli nəqliyyat vasitələrinin sürətlə yayılması, doğma Qarabağda aparılan məskunlaşma tədbirləri, həmçinin qeyri-karbohidrogen yanacaq növlərindən istifadənin sürətlənməsi ölkəmizin bu sahədəki uğurlarından xəbər verir. Dünya nəhəngi ABŞ-nin BMT-nin iqlim konvensiyasına töhfə verməməsi və son dövrlər, ümumiyyətlə, bundan geri çəkilməsi, həmçinin digər böyük güclərin sürətlə silahlanma və silahlandırma yarışı fonunda Azərbaycanın 2100-cü illərə hesablanmış yaşıl hədəflərini bu gün örnək sülh layihələri kimi ortaya qoya bilərik.

Və ölkəmizin etibarlı müdafiəsi! Bu gün artıq məğlub Ermənistanın da qəbul etmək məcburiyyətində qaldığı mövcud reallığı dayanıqlı etmək üçün ordumuzun müdafiə qabiliyyətinin davamlı artırılması Azərbaycanın həyata keçirdiyi sülh layihələrinin, bəlkə də, ən vacibi, ən lazımlısıdır. Bu mənada, müzəffər Ordumuzun müdafiə qabiliyyətinin daha da artırılması üçün ayrılan milyardlarla vəsait sabah Cənubi Qafqazın sabitliyinə, onun iqtisadi inkişafına da qarant olacaq layihə kimi sülhə xidmət edir. Belə ki, yaxın tarixi təcrübə göstərir ki, Ermənistan bir balaca şirələnən kimi dərhal yeni münaqişə ocaqları yaratmaq üçün fürsət gözləyən və nəticədə, hamıya zərər vuran bir dövlətdir. Ona görə də təkcə ermənilərə qarşı deyil, ümumiyyətlə, hər cür zərərvericilərə qarşı aparılan istənilən preventiv tədbir isə insanların, sadəcə, rahat yaşaması üçün ən faydalı iş, ən dəyərli layihə kimi yaddaşlarda qalacaq.

**Əli CABBAROV**

## Dövlət satınalmaları və tətbiqetmə təlimlərinə start verildi





Naxçıvan Təlim Mərkəzi 2025-ci il üçün nəzərdə tutulan zəruri təlimlər planı çərçivəsində 3 fevral tarixdən "Dövlət satınalmaları və tətbiqetmə" mövzusunda təlimlərə start verib.

Müvafiq sahə ilə bağlı ilk təlimdə Naxçıvan Tibb Müəssisələrinin İdarəetmə Birliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və onların struktur qurumlarının satınalma üzrə məsul əməkdaşları iştirak ediblər.

Naxçıvan Təlim Mərkəzinin əməkdaşı Ümid Qurbanov çıxış edərək bildirib ki, təlimin əsas məqsədi dövlət satınalma proseslərinin effektiv idarə edilməsi, şəffaflığın artırılması və hüquqi tənzimləmə mexanizmlərinin təkmilləşdirilməsi ilə bağlı bilik və bacarıqların inkişaf etdirilməsidir. Təlimin intensiv qrafiklə təşkil ediləcəyini vurğulayan Ümid Qurbanov təlimlərin məzmununun daha da təkmilləşdirilməsi və praktiki məşğələlərin artırılması istiqamətində işlər aparıldığını, iştirakçılardan toplanan rəy sorğularına və geri bildirimlərə əsasən dəyişikliklərin tətbiq olunacağını vurğulayıb.

Qeyd edək ki, "Dövlət satınalmaları və tətbiqetmə" mövzusunda Yağmur Meydanzadənin təlimçiliyi ilə keçirilən təlimdə iştirakçılara dövlət satınalmalarının hüquqi və institusional çərçivəsi, rəqabətli prosedurların tətbiqi, müqavilə idarəetməsi, şəffaflıq və korrupsiyaya qarşı mübarizə prinsipləri, şərtlər toplusu kimi mövzuların ətraflı izahı nəzərdə tutulub. Təlimin nəzəri və praktiki hissələrdən ibarət olması iştirakçılara mövzunu mükəmməl qavramağa və real nümunələr üzərindən öyrənməyə imkan yaradır.

Bu tip təlimlərin təşkil olunması dövlət satınalmalarının şəffaflığını və effektivliyini artırmaqla yanaşı, həm də dövlət büdcəsindən istifadənin səmərəliliyinin artırılmasına və ondan istifadənin maksimum səviyyəsini həyata keçirməyə təkan verəcək.

# Təbiətə bağlılıq daim ucalıq sayılıb



## O günlərdən bu günlərə

***Həmişə insan hisslərinin paklığı təbiətin gözəlliyinə, bulaq saflığına bənzədilib. Təbiətə bağlılıq daim ucalıq sayılıb. Təbiətin yaratdığı gözəlliyi insan yarada bilmir, amma onu qoruyub mühafizə edəndə, yaşıllıq zolaqlarını genişləndirəndə təbiət daha da zənginləşir. Heç təsadüfi deyildir ki, həmişə "Təbiət anadır, onu qoruyaq" ifadəsi bir deviz kimi səslənir. Yaşıllıqlar diyarına dönən Naxçıvanın gözəlliyini seyr edəndə və hər qış gələndə bir vaxtlar evlərin həyətlərində tüstülənən ocaqlarda yığılmış beş-altı quru budağın oduna qollu-budaqlı ağacların necə yandığını xatırlayıram:***

"Elektrik enerjisi qıtlığı, qazın olmaması, adicə neftin tapılmaması adamları çox çətin vəziyyətə salmışdı. Elə buna görə də bağ və parklarda, prospekt və küçələrdə, meydanlarda gövdəli ağacların kötükləri cərgələnirdi. Adam ehtiyac içərisində qalanları da qınaya bilmirdi. Axı körpə uşaq ağlaya-ağlaya iki ayağını bir başmağa dirəyib bir stəkan çay tələb edəndə yazıq valideyn əlacsız qalırdı. O da ocaq yandırmaq üçün əl atırdı ağacları kəsməyə. Təkcə bunlar olsaydı, dərd yarı idi. Ancaq ən ağırı o idi ki, neçə-neçə komisyon, kooperativ mağaza sahibi olmaq istəyənlər bağ və parklarda tikinti meydanı düzəltmək üçün ağacları, bəzək kollarını kütləvi surətdə kəsib doğrayırdılar. Bu həmin illər idi ki, sərhədlərimizdə döyüş gedirdi, hər yerdən ümidi üzülən yerli əhali günün çoxunu neft, daş kömür növbələrində keçirirdi".

Elə bil, təbiət də öz şıltaqlığını həmin qışa saxlamışdı. 90-cı illərin sərt qışı qazı, elektriki kəsilən sakinləri bağlara, bağçalara üz tutub ağaclara balta vurmağa məcbur edirdi desək, yanılmarıq. Elə bir vaxtda bütün naxçıvanlıların ümidi gəlişi ilə ömrümüzün hər gününə Günəş kimi həm aydınlıq, həm də hərarət gətirən xalqının mərd, Vətənsevər oğlu, dahi rəhbər Heydər Əliyev idi. Hər zaman öz xalqının yanında olan ən çətin məqamlarda belə Vətəni üçün əlindən gələni edən dahi şəxsiyyət xalqın təkidli tələbi ilə ikinci dəfə siyasi hakimiyyətə qayıtdıqdan sonra ətraf mühitin mühafizəsi, təbii sərvətlərdən səmərəli istifadə olunması və onların bərpası istiqamətində də ciddi və ardıcıl tədbirlər həyata keçirməyə başladı.

## Vətənimiz yaşıllıqlar diyarına çevrildi

Ulu Öndərin ölkədə ekoloji vəziyyətin yaxşılaşdırılması istiqamətində həyata keçirdiyi siyasət sayəsində Vətənimizdə yeni meşələr, bir-birindən gözəl parklar və istirahət guşələri yaradılıb. Ümummilli Lider Heydər Əliyev yaşıllıqların qorunmasından danışarkən deyirdi: ***"Hər bir insan ağac əkməlidir, becərməlidir, böyütməlidir. Əgər kimsə sağlam ağacı kəsirsə, o nəinki xalqına, millətinə, ölkəsinə xəyanət edir, o öz ailəsinə, özü-özünə xəyanət edir".*** Bu müdrik tövsiyələr təbiətə, o cümlədən meşələrə qayğının bir nümunəsi kimi çox ibrətamizdir. Dahi rəhbər yaşıllıqların salınmasına, ağacların qorunmasına xüsusi diqqət yetirib, özü ağac əkilməsində iştirak etməklə hər kəsə nümunə göstərib.

Əsası Ulu Öndər tərəfindən qoyulan ekoloji siyasət bu gün ölkə başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkəmizdə dövlət başçısının müvafiq sərəncamları ilə təsdiq olunan Dövlət proqramlarının həyata keçirilməsi sahəsində əməli tədbirlər görülür. Bütün bunlar muxtar respublikamızın da əlvan təbiətinin mühafizəsinə əsaslı təminat verir. Ana təbiətin köksünə illər öncə vurulan balta səslərinin yerini yaşıllıqlar qoynunda istirahət edən övladlarımızın şən səsləri əvəz edib.

> **Ulu Öndər Heydər ƏLİYEV:**
>
> ***"Hər bir insan ağac əkməlidir, becərməlidir, böyütməlidir. Əgər kimsə sağlam ağacı kəsirsə, o nəinki xalqına, millətinə, ölkəsinə xəyanət edir, o öz ailəsinə, özü-özünə xəyanət edir."***

Qədim çağlardan yurdumuz bağçılıq-meyvəçilik diyarı kimi tanınıb. Ulularımız deyiblər: "Ağacı arx qırağında ək ki, yıxılanda elobaya körpü olsun", "Ağaclı kəndi sel basmaz", "Ağacı çox olan elin məzarı az olar". Görkəmli təbiətşünas-alim Həsən Əliyevin bu müdrik kəlamı isə daim yaddaşlardadır: "Bəlkə də, toya, yasa və digər mərasimlərə yubanmaq olar. Təbiətə münasibətdə yubanmaq isə yaşamağa yubanmaqdır". İnsanlıq naminə ağaclara qulluq etmək dinimizdə də savab iş sayılır. Bu barədə hədisi-şəriflərdən birində deyilir ki, bir kimsə bir ağac əkərsə, ağac meyvə verənə qədər onu qoruyub baxarsa, bu ağacdan tökülən hər meyvə Allah qatında o kimsənin sədəqəsi olar. Müdriklərimiz deyiblər: "Ağac əkmək, bağ salmaq hünər deyil, onu qoruyub saxlamağı bacarasan gərək", "Bağa baxarsan, bağ olar, baxmazsan, dağ olar". Onların bu kəlamlarına əməl edən muxtar respublika sakinləri əsas diqqəti insan əlləri ilə ərsəyə gəlmiş gözəllikləri qorumağa, onlara aqrotexniki qulluq göstərməyə yönəldiblər...

Bu qayğının, bu qulluğun nəticəsidir ki, doğma Naxçıvanımız artıq yaşıllıqlar diyarına çevrilib. Bir vaxtlar yol kənarlarındakı ağacları barmaqla saymaq mümkün idisə, bu gün tamam başqa mənzərənin şahidi oluruq. Təkcə Naxçıvan şəhərinin illər öncəki vəziyyəti ilə bu gününü müqayisə etdikdə qeyd olunan faktlar açıq-aydın göz önünə çıxır. Bu gün magistral yolların kənarlarında əkilmiş meyvə və meşə ağacları bu yollardan keçənlərin zövqünü oxşamaqla bərabər ekoloji təmizliyi də təmin edir.

## Yaşıl dünya naminə ağac əkdik

Onu da qeyd etmək yerinə düşər ki, ötən il "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində muxtar respublika ərazisində, ümumilikdə, 826,9 hektar sahədə meşəsalma və meşəbərpa tədbirləri görülüb, 311 min ədəddən artıq müxtəlif meyvə və meşə tingləri əkin dövriyyəsinə daxil edilib. Belə ki, 110 hektar sahədə yeni bağları, salınıb, 479,6 hektarda meşəbərpa tədbirləri görülüb, 234 hektar sahədə toxumla əkin, 3,3 hektar sahədə isə yeni toxmacarlıq sahələri yaradılıb.

Ətraf mühitin sağlamlaşdırılmasına dövlət nəzarəti nə qədər güclü olsa da, təbiətin gözəlliklərinin qorunmasında hər kəsin iştirakı vacibdir. Ümumiyyətlə, təbiətin mühafizəsinə ekoloji nəzarəti gücləndirmək bənzərsiz gözəllikləri, – təbiətin saysız-hesabsız nadir incilərini qorumaq deməkdir. Ona görə də insanların ekoloji təfəkkürünün formalaşması, ekoloji mədəniyyətimizin inkişaf etdirilməsində mühüm əhəmiyyət daşıyan maarifləndirmə işləri hər zaman diqqət mərkəzində saxlanılır. Çünki bu, sağlam gələcəyimizin təmin edilməsi üçün vacibdir.

✍ Ramiyə ƏKBƏROVA



# Bir ömrün uvertürası – Üzeyir Hacıbəyli





Sadəcə, Üzeyir kimi, rəsmi olaraq Üzeyir Əbdülhüseyn oğlu Hacıbəyli kimi tanınan bu görkəmli şəxsiyyət özünün misilsiz xidmətləri ilə Azərbaycan mədəniyyətinin heykəlinə çevrilmişdir. Bu nadir şəxsiyyət adı ilə Azərbaycan milli musiqisini rəmzləşdirən dahi bir simadır. Adı milli musiqimizin ifadəçisinə çevrilən bu görkəmli simanın bütün taleyi Azərbaycan mədəniyyətinin inkişafı ilə bağlı olub. Bütün bu misilsiz xidmətlərinə görədir ki, 2025-ci ildə Üzeyir bəyin əziz xatirəsinə ehtiram nümunəsi kimi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 140 illik yubileyinin keçirilməsi haqqında Sərəncam imzalamışdır. Sərəncamda göstərildiyi kimi: ***"Üzeyir Hacıbəyli çoxşaxəli yaradıcılığı ilə Azərbaycan mədəniyyəti tarixində silinməz iz qoymuş qüdrətli şəxsiyyətlərdəndir. Ömrünü cəmiyyətin mədəni tərəqqisinə həsr edən fədakar ziyalının yüksək mənəvi-estetik dəyərə malik irsi Azərbaycan xalqının XX əsrin ilk onilliklərindən vüsət almış ədəbi-mədəni intibahının aynasıdır... Üzeyir Hacıbəyli, eyni zamanda parlaq bədii dühası sayəsində Azərbaycan dramaturgiyasına dəyərli töhfələr vermiş, alovlu publisistikası ilə mətbuat salnaməsinə yeni səhifələr yazmışdır. Onun Azərbaycançılıq məfkurəsi ilə yoğrulmuş dolğun ictimai-siyasi fəaliyyəti əsl vətənpərvərlik nümunəsidir".***

## Azərbaycan peşəkar musiqisinin mənəvi atası...

Əvvəla, qeyd edək ki, Üzeyir bəy kimi dahi şəxsiyyətin Azərbaycan xalqına bəxşi ilahi bir lütf idi. O, Azərbaycan ictimai, ədəbi, mədəni fikrinə, onun incəsənəti, mədəniyyəti, ədəbiyyatı, publisistikası, teatrı və başqa sahələrinə nə verməyib?.. Haqlı olaraq Üzeyir bəyin adı gələndə nəhəng və əzəmətli bir Azərbaycan konservatoriyası göz önündə canlanır. Təkbaşına belə Azərbaycan musiqisini təmsil etməyə qadir və qabil bir şəxsiyyət, nəhəng və sanballı bir sima idi o. Üzeyir bəyin musiqiçi kimi yetişməsi və şöhrət tapmasında qocaman "Qafqazın Konservatoriyası" adlanan Şuşanın (və əlbəttə ki, Qarabağın!) nə qədər rolu var idisə, bu doğma yurdun da belə bir şöhrətə qabil olmasında onun yetirdiyi Üzeyir bəy kimi say-seçmə və çoxsaylı musiqiçi övladları mühüm rol oynamışdı. Üzeyir bəy Azərbaycan musiqiçilərinin mənəvi atası idi. 1908-ci ildə başlatdığı opera janrı təkcə ölkəmiz üçün deyil, bütün geniş bölgə – Qafqaz və digər yaxın türk-müsəlman ölkələri üçün istiqamətləndirici faktor oldu. Onun bəstələdiyi operalar təkcə musiqi sənətimizə zənginlik qatmadı, həm də librettoların mətninin aid olduğu əsərlərə əbədiyaşarlıq və şöhrət bəxş etdi. 1908-ci ildə Şərqin ilk operası olaraq yaddaqalan dahi Füzulinin "Leyli və Məcnun" əsərinin əsasında hazırlanan opera həm də Şərqin dahi Füzulisinə yenidən böyük bir şöhrət və məhəbbət qazandırdı.

## Böyük ədəbiyyat nəhəngi...

...Üzeyir bəy haqqında nəyi deməyəsən ki, vicdanın narahat olmaya? Azərbaycan ədəbiyyatının nəhəng və qüdrətli ədibi, el arasında daha çox "Məşədi İbad" kimi tanınmış "O olmasın, bu olsun", o cümlədən "Arşın mal alan", "Ər və arvad" komediyalarının unudulmaz müəllifi... Məşhur "Ordan-burdan" silsilə məqalələrinin ölməz imza sahibi... "Leyli və Məcnun", "Şah Abbas və Xurşidbanu", "Əsli və Kərəm", "Harun və Leyla", "Rüstəm və Söhrab", "Koroğlu" kimi operaların yaradıcısı... Çoxsaylı satirik hekayələr, səhnəciklər və məqalələr müəllifi... Onun əsərləri həm də Azərbaycan xalq sənətinə yeni güc verdi və onun yaşamasına zəmin hazırladı. Azərbaycan xalq mahnıları məhz bu dahi şəxsiyyətin təşəbbüsü ilə nota alınaraq, xalqın əbədilik milli sərvətinə, zəngin xəzinəsinə çevrilərək, itib-batmaqdan xilas oldu. Naxçıvanın məşhur yallıları bu qədirbilən şəxsiyyətin sayəsində yenidən həyat və əsl sənət taleyi yaşamağa imkan tapdı. Beləliklə də, dünya-bəşər mədəniyyətinə Azərbaycan mədəniyyəti adlı təkrarolunmaz, özünəməxsus, zəngin, qədim və əlvan bir mövcudluq naxışı bəxş etdi. O həm də bu zəngin milli sərvətin elmi şəkildə öyrənilməsinə də başlanğıc verdi, özünün həmişəyaşar elmi əsərləri ilə nümunə və zəmin yaratdı. "Muğamat və xalq mahnılarının ifası haqqında", "Səhnənin tərbiyəvi əhəmiyyəti haqqında", "Vəzifeyi-musiqiyyəmizə aid məsələlər", "Türk operaları haqqında", "Azərbaycan musiqi həyatına bir nəzər", "Musiqidə xəlqilik" və başqa çoxsaylı məqalələri ilə fundamental musiqi, incəsənət, teatr və mədəniyyət sahələrinə dair sanballı elmi əsərlər ortaya qoydu. Və əlbəttə ki, Azərbaycan elmində mədəniyyətşünaslıq, sənətşünaslıq və digər elm sahələrinin binasını qoydu. Üzeyir bəy, həmçinin böyük xalq müəllimi idi. Azərbaycan balalarının savadlanmasında can qoyan maarif xadimlərindən biri idi. Onun "Rusi-türki və Türki-rusi" lüğəti və "Hesab məsələləri" adlı metodik vəsaiti həm dövrü üçün yenilikçilik idi, həm də xalq müəlliminin can yanğısının təzahürü.

## Milli-mənəvi dəyərlərin, xalq folklorunun yaşadıcısı, Naxçıvandan seçilən xalq deputatı...

Üzeyir bəy həm də Naxçıvan üçün doğma, əlahiddə bir şəxsiyyət idi. Əvvəla, bütün bölgələrdə olduğu kimi, Naxçıvanda da peşəkar musiqi mədəniyyətinin inkişafı məhz onun və ardıcıllarının sayəsində mümkün olub. Çünki bu dahi şəxsiyyət, ümumən, Azərbaycan milli musiqi təhsil sisteminin əsasını qoyub. Bilavasitə Üzeyir Hacıbəylinin şəxsi səyləri ilə Bakıda musiqi təhsili məktəblərinin açılmasından sonra onun tövsiyəsi və dəstəyi ilə Naxçıvanda da milli musiqi təhsilinin əsası qoyulmuşdur. Hətta yazılanlara görə, dahi bəstəkarın böyük qardaşı, Üzeyir və Ceyhun Hacıbəylilərin formalaşmasında böyük xidmətləri olmuş Zülfüqar Hacıbəyli müvəqqəti olaraq Naxçıvanda yaşayıb-yaratmış, Üzeyir bəyi Naxçıvan mühiti, mədəni şəraiti və inkişafı ilə o, yaxından tanış etmişdir. Məhz bu nəhəng mədəniyyət xadimlərinin əzmkar fəaliyyətlərinin nəticəsi olaraq Naxçıvanda da musiqi təhsilinə şərait yaradılır. Qeyd etmək lazımdır ki, böyük Üzeyir bəyin 1937-ci ildə SSRİ Ali Sovetinin Millətlər Sovetinə Naxçıvanın Şərur rayonundan namizədliyi verilərək seçilmişdir. Elə 1937-ci ildə Naxçıvan Mərkəzi İcraiyyə Komitəsinin qərarı ilə Naxçıvanda musiqi məktəbinin açılması ilə bağlı qərar verilmiş, tədris ili üçün şagird kontingentinin say tərkibi də müəyyənləşdirilmişdir. Həmin musiqi məktəbində şagirdlərə 5 şöbə üzrə: tar, kamança, royal, nəfəsli və simli alətlər üzrə dərslər tədris edilib. Üzeyir bəy Naxçıvanda olarkən ətraflı maraqlandığı bu zəngin mədəniyyət beşiyində yallı rəqsləri daha çox diqqətini cəlb edib və ümumən, Naxçıvanın, onun Şərur bölgəsinin folklor etibarilə zəngin olduğuna da diqqət çəkərək yazıb: "Şərur Azərbaycan folklor mədəniyyətinin beşiyidir". O, yallıların da ana məkanının Şərur olduğunu yazaraq: "Yallının vətəni Şərurdur, yallı Şərurda doğulub", – deyə öz fikrini ifadə edib.

O həm də iki Dövlət Himnimizin musiqisinin müəllifidir. Bu gün də Dövlət Himnimiz olan, Azərbaycan Xalq Cümhuriyyətinin və Azərbaycan SSR-in Dövlət Himninin musiqisini Üzeyir bəy Hacıbəyli yazmışdı. Qüvvətli publisist kimi tanınan Üzeyir bəy Hacıbəyli, habelə "Həqiqət", "Tərəqqi" kimi qəzetlərin redaktoru, eləcə də qardaşı Zülfüqar Hacıbəyovdan sonra ilk rəsmi dövlət mətbuat orqanımız olan Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı "Azərbaycan" qəzetinin baş redaktoru olmuşdur. Bütün bunlara və bundan ziyadə olub sadalanmayan faktlara görə, Üzeyir bəy şəxsiyyəti, siması istər yaxın, istərsə də uzaqdan həmişə nəhəng, əzəmətli, canlı və dərindir.

Üzeyir bəyin əziz xatirəsi unudulmazdır: o, hər zaman qəlbimizdə, dilimizdə, şüurumuzdadır. Hər zaman təntənə ilə çalınan uvertüranın səfərbəredici, birləşdirici musiqisində, əl qoyub qəlbimizə dərin bir intizamla oxuduğumuz dövlətimizin himnində, zümzümə etdiyimiz çoxsaylı mahnılarımızın səsindədir.

Azərbaycan xalqının bu dahi bəstəkar oğlunun anadan olduğu gün 18 sentyabr ölkəmizdə "Milli Musiqi Günü" kimi qeyd edilir. Ölkəmizdə Milli Musiqi Günü 1995-ci ildən Azərbaycan xalqının böyük oğlu, milli mədəniyyət və incəsənətimizin böyük hamisi Ümummilli Lider Heydər Əliyev tərəfindən dahi bəstəkarın şərəfinə rəsmiləşdirilib.

Üzeyir bəy Hacıbəyliyə ehtiramını bildirən Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev dahi şəxsiyyətin xatirəsinin yaşadılmasına əməli töhfələr və imkanlar yaratmaqla bərabər ev-muzeyinin yaradılmasında da iştirak edərək demişdir: ***"...Dahi Üzeyir bəy Hacıbəyovun xatirəsi qarşısında baş əyirəm. Bütün Azərbaycan xalqı bu gün Üzeyir Hacıbəyovun xatirəsi qarşısında baş əyir. Mən onun xatirəsinə hörmət və ehtiramımı bildirərək bu gün bir daha xalqımızı birliyə dəvət edirəm. ...O bizim üçün əzizdir və xoşbəxtlik də ondan ibarətdir ki, o bu gün də yaşayır".***

Bəli, o bütün ömrünü Azərbaycan mədəniyyətinin inkişafına həsr edib. Hər nə yazıbsa, hər nə iş görübsə, canından əziz sevdiyi vətəni Azərbaycanın inkişafı üçün edib. O, təkcə Azərbaycan mədəniyyətini dünyada tanıdan və onun səfirinə çevrilən bir şəxsiyyət deyil. O həm də bir eli, bir ölkəni, bir torpağı mahnılarına sığdıran və ruhunda daşıyan Vətən fədaisi idi. Azərbaycan adlı Vətənin və ona olan sevginin notlarını yazıb ifadə edən bu dahi şəxsiyyət həm də zəngin milli mədəniyyəti ilə tanıtdığı ölkənin dünyadakı fəxri səfiridir. Bu nadir şəxsiyyət həm də təmsil etdiyi zəngin milli mədəniyyətimizlə düşmənlərimizə və bizi sevməyənlərə bir notadır. Bu torpaqda bir Üzeyir ruhu dolaşır üzü Şuşaya, Qarabağa doğru. "Koroğlu" uvertürasının notları altında özü kimi əsgər ruhları ilə xalqımızı birlik və həmrəyliyə səsləyərək bu ölkənin sərhədlərinə keşik çəkir.

Üzeyir bəy torpaqlarımız işğaldan azad edilərkən hər zaman bizimləydi. O zaman döyüş ruhu əxz edən cəngiləri ilə, bu gün isə Qələbəmizin sevincini və milli qürurumuzu ifadə edən marşı və uvertürası ilə. Bizim uvertüramız öz Koroğlusuna və Koroğlularına səslənir, onların birlik rəmzi olan Vətən nəğmələrini, azadlıq hayqırışlarını, döyüş nərələrini özündə ifadə edir. İndi bizim uvertüramızın Koroğlusu Azərbaycandır, Azərbaycan xalqıdır, Ali Baş Komandanımız və müzəffər Ordumuzdur! Böyük Zəfər sevincinə bürünmüş 140 yaşın mübarək, dahi Üzeyir bəy!

**Ramiz QASIMOV**
***filologiya üzrə fəlsəfə doktoru, dosent***



# Naxçıvanın 7 incisi, yaxud nənəmin danışdıqları

***Bəzən axtardığın sualın cavabı, əslində, gözünün qabağında olur. Ya da hansısa informasiya mənbəyi, əslində, çox yaxınındadır. Sadəcə, onu görmək və kəşf etmək lazımdır. Bu dəfə məndə də məhz belə oldu. "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın təfsilatlı Tədbirlər Planında nəzərdə tutulmuş "Naxçıvanın 7 incisi" kompleksi haqqında Mədəniyyət Nazirliyinin məlumatı ilə tanış olandan sonra bu istiqamətdə yazı hazırlamaq qərarına gəldim. Naxçıvan şəhərində bir sıra tarixi-memarlıq və təbiət abidələri – Xan sarayı, Möminə xatın türbəsi, Qızlar bulağı, Yay teatrı, Bazar gölü, Köhnə bazar və Qədim karvansarayın daxil olduğu tarixi məkanların bazasında yaradılması nəzərdə tutulan Tarix-Memarlıq Turizm Kompleksinə daxil olan Naxçıvanın qədim tarixi incilərinin adları mənim təsəvvürümdə digər məqamları da canlandırdı: qeyd olunan abidələrin canlı şahidi ilə bu mövzuda söhbət etmək. Sonda bu nəticəyə gəldim ki, ən yaxşı mənbəm uşaqlığını və gəncliyini məhz kompleksin yaradılması nəzərdə tutulan ərazidə keçirən nənəmdir.***



Yaşı səksəni çoxdan keçmiş nənəm elə şəhərin həmin hissəsində doğulub. Ona görə də buranın ən azı 80 illik tarixinə onun şahidliyi ilə qayıtmaq, onun gördükləri ilə səyahət etmək kifayət qədər maraqlı oldu. O səbəbdən ki, bunlar hansısa ehtimallar deyil, onun uşaqlıq xatirələridir.

Fikrimi ona bildirəndə həvəslə razılaşdı. Çünki ayrı-ayrı zamanlarda özü yaşadığı həmin ərazi haqqında hörmət və əslində, bir az da həsrətlə dediyi "dədə məhəlləm", "köhnə məhəlləmiz" haqqında müxtəlif xatirələrini bölüşüb, danışırdı. Ona görə təxmini bildiklərim də az deyildi. Beləliklə, nənəm Nubar Babayeva ilə birlikdə şəhərin bu hissəsini addım-addım gəzib onun nəql etdiklərinə əsasən "Naxçıvanın 7 incisi"  kompleksinə daxil olan abidələrin bir əsrə yaxın tarixi mənzərəsi ilə sizi tanış edirəm. Bu yalnız həmin abidələrin deyil, eyni zamanda Naxçıvan şəhərinin də tarixi mənzərəsidir.

Nənəmin doğulduğu ev şəhərin məhz bu hissəsində – hazırda 4 nömrəli tam orta məktəbin yerləşdiyi ərazidə olub. O zaman bura şəhərin ən qaynar nöqtəsi hesab edilirdi. Çünki şəhərin əsas məscidi, karvansaray, bir neçə dəyirman, bazar, cərgə ilə düzülmüş dükanlar, eyni zamanda içində restoran olan bağ məhz bu ərazidə yerləşirdi. Nənəm deyir ki, indiki göl olan ərazidə həm də "əsgər hamamı" deyilən hamam var idi. Hamam maye yanacaq vasitəsilə qızdırılırdı. Oradan yalnız əsgərlərin istifadəsinə icazə verirdilər.

Şəhərin ən önəmli məkanlarından biri olan Karvansaray şəhər məscidi – Came məscidi ilə indiki "Gənclik" mərkəzi, bir zamanlar "Sabir bağı" adlandırılan Əcəmi seyrəngahı və indi Turizm İnformasiya Mərkəzi yerləşən, əvvəllər isə Uşaq-Gənclər Yaradıcılıq Mərkəzi olan tarixi bina – Zaviyə arasındakı yeri əhatə edirdi. Karvansaray bazarla bitişik idi. Burada, əsasən, mal-qara satışı həyata keçirilirmiş. Uzaq yerdən gəlib qalmağa yeri olmayanlar bəzən orada gecələyirmiş. Həm karvansarayın, həm də bazarın iki qapısı var imiş.

Bu yerləri gəzib yaddaşında qalanları bir-bir nağıl edən nənəm atasının bir xatirəsini də mənə danışdı. İkinci Dünya müharibəsi dövründə rus zabitləri tez-tez bazara və karvansaraya gəlib buradakı gəncləri saxlayıb zorla hərbi xidmətə aparırmış. Qoca babam danışırmış ki, bir dəfə bazara gedəndə bir anda həm karvansarayın, həm də bazarın qapıları rus hərbçiləri tərəfindən tutuldu. Qarşılarına çıxan xidmətə yararlı hər kəsi evinə xəbər verməyə imkan belə yaratmadan tutub birbaşa müharibəyə apardılar.

Nənəm deyir ki, məscidin yanında cərgə ilə dükanlar düzülmüşdü. Həm bazar, həm karvansaray, həm də bu dükanlar insanların buraya daha çox gəlməsinə səbəb olurdu. Naxçıvanın başqa yerlərindən bura gələnlərin ən çox toplaşdığı, üz tutduğu yer də məhz buna görə bu ərazi idi. İndiki Naxçıvan Dövlət Kukla Teatrı və onun ətrafındakı yaşayış binaları olan yerdə isə sakinlər arasında Cıdıllı (Cıdırlı) deyilən bağ var idi. 2 qapısı olan bağın içində restoran və çarhovuz yerləşirdi.

Bazar gölünün yanında ayaq saxlayırıq. Sanki nənəm yaddaşının hansısa küncündə ilişib qalan bir xatirəni axtarıb tapmağa çalışır. Sakitcə düşünür və tapır. Deyir ki, hazırda Bazar gölü olan ərazidən iki çay axırdı. Həmin vaxtlar orada göl yox imiş, sonradan yaradılıb. Çayın biri hazırda göl olan ərazidən axırdı. Həmin vaxt orada evlər var idi. Çayın digəri isə yuxarıdan – Əcəmi seyrəngahına (o zaman "Sabir bağı" adlanırmış) yaxın hissədən axırdı. Həmin çayın üzərində üç dəyirman işləyirdi. Dəyirmanlardan ikisi çayın üzərində idi. Deməli, çayın kifayət qədər çox suyu var imiş. Nənəmin dediyinə görə, Bazarçay ilə digər çay birləşib böyük bir şəlalə əmələ gətirirdi. İndi Qızlar bulağı deyilən yerdən – Damcının yaxınından axan şəlalə əraziyə xüsusi gözəllik verirdi. Hazırda həmin ərazidə olan dərinlik də bunu sübut edir. Ərazidəki dəyirmanlardan biri də elə bu şəlalənin üzərində inşa edilmişdi.

Nənəm onu da deyir ki, çaylar şəhərin içərisindən axıb keçirdi və xüsusi gözəllik qatırdı şəhərə. Bəzi hissələrdə çayların üstü beton plitələrlə örtülmüşdü və üzərində avtomobillər hərəkət edirdi. Sonradan isə çayların üzəri tamamilə qapadıldı.

Nənəmin danışdığı ən maraqlı məqam isə Qızlar bulağı ilə əlaqədardır. Ağlım kəsəndən həmin ərazi haqqında danışanda, Qızlar bulağı deyəndə nənəm həmişə etiraz edirdi ki: "Ora Qızlar bulağı deyil, Damcıdır". O deyir ki, bulaq heç vaxt orada olmayıb, oradan axan suların isə bulaqla heç bir əlaqəsi yoxdur. Qızlar bulağı xeyli aşağıda, yaşayış evlərinin arası ilə axırmış. Danışır ki: "Məhəmməd əmigilin evinin qarşısında idi bulaq. Üç metr enində axan bulağın suyu ağappaq və çox soyuq idi. Bulağın üzərində də bir dəyirman fəaliyyət göstərirdi".

Bir anlıq susur. Sanki yenidən həmin illərə qayıdıb nəyisə tam dəqiqliklə xatırlamaq istəyir. Gözlərini qıyıb nəzərlərini qarşıya – danışdığı xatirələrdəki insanların vaxtilə yaşadığı köhnə məhəlləyə tərəf dikir. Xatirələrini yenidən dilə gətirir: "Sonradan dəmiryol vağzalı tərəfdə ət kombinatı tikildi. Qızlar bulağının suyu da borularla həmin kombinata çəkilib aparıldı. Sakinlərin istifadəsi üçün isə, sadəcə, bir su kranı saxlanıldı. Həmin vaxtdan sonra bulağın üstündə əsgərlər nəzarətçi durmağa başladılar. Buna görə artıq dəyirman da işini dayandırdı. Ondan sonra isə bulağın suyu tamamilə çəkilib aparıldığına görə orada heç bir iz qalmayıb".

Nənəm onu da deyir ki, indi Bazar gölü olan ərazidə Came məscidi ilə üzbəüz yerləşən dayanacağın altında "Lülə" deyilən kəhriz axırdı. Sakinlər oradan içməli su götürür, paltarlarını orada yuyurdular, kəhriz həddindən artıq bolsulu idi.

Nənəmin danışdığı ən maraqlı xatirələrdən biri də Xan sarayı və Möminə xatın türbəsi haqqındadır: Möminə xatın türbəsinin ətrafında Xan sarayına yaxın yerlərdə zamanında xanın tikdirdiyi evlər var idi. Əvvəllər bu evlərdə xanın sarayında, həyatində işləyənlər yaşayırdı. Cərgə ilə düzülmüş bu evlərdə sonradan şəhər sakinlərindən yaşayanlar çox idi. Həmin evlərin birində də uşaq bağçası fəaliyyət göstərirdi. Nənəm də elə orada işləyirdi.

Nənəm bu yerləri gəzib xatirələrini danışdıqca sanki yenidən köhnə illərə qayıtdı. Uşaqlığının, gəncliyinin keçdiyi yerləri gəzdikcə çözələnən xatirələr, indi həyatda olmayan yaxınları ilə keçirdiyi qayğısız illər sanki yenidən gözündə canlandı. Böyük bir gənclik həvəsi ilə ötən günləri bizim üçün yenidən xatırladı və yenidən gəncləşdi. O, hər daşında, hər küçəsində uşaqlıq xatirələri olan "dədə məhəlləsi"ni vəsf etdikcə mən də "Naxçıvanın 7 incisi"ni nənəmin danışdıqları ilə sizin üçün qələmə aldım. Xatirələr isə bitmədi, tükənmədi, sağlıq olsun...

**Məmməd BABAYEV**

# "Şərq qapısı" qəzeti və karikatura janrı

Azərbaycan jurnalistikasında tənqidi satiranın və bəzi hallarda sarkazmın bədiiləşmiş formada ifadəsi karikatura sənətində əks olunmaqla başlanılıb. Karikatura dedikdə ilk ağıla gələn ovaxtkı hakim dairələrdə təşviş yaradan "Molla Nəsrəddin" jurnalıdır. Böyük demokrat yazıçı Cəlil Məmmədquluzadənin naşirliyi ilə 1906-cı ildə fəaliyyətə başlayan "Molla Nəsrəddin" jurnalı bu baxımdan karikaturanın inkişafında mühüm rol oynayıb. Akademik İsa Həbibbəylinin dediyi kimi: "XX əsrin əvvəllərində Tiflis şəhərində yaşayıb-yaratmış tanınmış alman rəssamı Oskar Şmerlinqin əsasını qoyduğu mollanəsrəddinçi karikatura görkəmli Azərbaycan karikaturaçı rəssamı Əzim Əzimzadənin yorulmaz fəaliyyəti ilə böyük sənət məktəbinə çevrilmişdir. Oskar Şmerlinq və Əzim Əzimzadədən başqa İosif Rotter, Xəlil Musayev, Seyid Əli Behzad, İsmayıl Axundov, Qəzənfər Xalıqov, Hüseyn Əliyev və başqaları kimi karikatura ustalarının vahid ideya-sənət cəbhəsində birləşərək fəaliyyət göstərmələri "Molla Nəsrəddin" karikatura məktəbinə böyük nüfuz qazandırmışdır".

Bu gün Azərbaycan mətbuatında onların yolunu davam etdirən rəssamlar və media strukturları az deyil. Dövrün çatışmazlıqlarını, inkişafımıza maneçilik törədən halları karikatura vasitəsilə tənqid edən belə media mənsubları özlərindən əvvəl yaradılmış vasitələrdən istifadə edərək cəmiyyətimizin tərəqqisinə töhfələrini verirlər. Bu baxımdan yaşı 100-ü ötmüş, bu dövrdə fasiləsiz olaraq oxucularla görüşə gəlmiş "Şərq



qapısı" qəzetini nümunə göstərə bilərik. Redaksiyanın arxivində saxlanılan nömrələrdən belə məlum olur ki, qəzet ara-sıra öz səhifələrində tənqidi yazılara uyğun karikaturalar da dərc edib. Bu gün də bunu vacib sayır. Bu baxımdan qəzetin ötənilki nömrələrində verilmiş Əməkdar jurnalist, yazıçı-publisist Hüseyn Əsgərovun "Toy və yas biznesinin əsirləri" adlı publisist yazısında gördüyümüz karikaturalar diqqəti cəlb edir. Böyük əks-səda doğuran həmin yazı haqqında geniş danışmaq istəmirik. Oxucuların diqqətinə çatdırırıq ki, yazıda təsvir olunan hadisələrə rəssam Araz Xudiyev əlavə rəng qatıb. Qəzetin 19 oktyabr tarixli nömrəsində verilmiş yazının birinci hissəsində bu günümüz üçün xarakterik olan və hər bir toy sahibini, necə deyərlər, quyunun dibinə salan toy yeməkləri təsvir olunub. Saymaqla qurtarmayan yemək çeşidləri, müxtəlif salatlar, növbənöv içkilər, daha nələr-nələr: Toy sahibinə bəlli olmayan qiymətə başa gələn bu yeməklərin masalara düzülməsi, yarısının toydan sonra zibil qutularına atılması israfçılıq deyilmi? Rəssamın bu xoşagəlməz hallara belə yanaşma tərzi təbiidir. Və hiss etmək çətin deyil ki, gənc rəssam bu məqama bu günün tələbi ilə yanaşıb. Karikaturaya baxan kimi gözlərimiz önündə hər toyda gördüklərimiz canlanır. Burada rəsm əsərinin, konkret olaraq, karikaturanın gücünü görürük. Yazının ikinci hissəsinin dərc olunduğu 26 oktyabr tarixli nömrəsində isə yas mərasimindən danışılır. Bu nömrədə də verilmiş karikatura aşıladığı günün reallığı ilə diqqəti çəkir. Müəllif ideyasının fırçanın gücü ilə canlandırılması yazının oxunaqlığını bir qədər də artırıb.

Son olaraq bir daha o fikrə qayıtmaq istəyirik ki, "Molla Nəsrəddin"dən başlanan karikaturaçılıq ənənəsi bu gün də yaşadılır. Buna canlı nümunə kimi "Şərq qapısı" qəzetini göstərə bilərik.

**Aidə İBRAHİMOVA**

# Tarix burada vərəqlənir,

## yaxud 100 illik keçmişdən bu günə uzanan körpü

Bura keçmişin sığınağıdır. Zamanın gərdişi ötdükcə, dövranın hökmü dəyişdikcə burada qorunan tariximiz gələcəyin ən qiymətli xəzinəsinə çevrilir. Bu yer yalnız məlumatların saxlanc yeri deyil, həm də insanların yaşadığı dövrün, düşüncələrin, arzuların, istəklərin, hisslərin, həyəcanların, bəzən də qorxuların izlərini qoruyan və o izləri bu günə daşıyan zamanın təkamülüdür. Buradakı hər bir sənəd bir dövrün yadigarı, xalqımızın yaddaşıdır. Bu yadigarlar isə neçə-neçə əsrlər, qərinələr sonraya işıq salır. Ulu yurdumuz Naxçıvanın keşməkeşli tarixinin qapılarını üzümüzə açan bu sirli aləm 1925-ci il, dekabr ayının 13-də yaradılan, bu il 100 yaşını qeyd edən Naxçıvan Muxtar Respublikası Dövlət Arxiv İdarəsidir. Burada olarkən ən təsirli məqamlardan biri Azərbaycanın qurucusu dahi şəxsiyyət Heydər Əliyevin 1939-cu illərdə Naxçıvan Pedaqoji Texnikumunda təhsil aldığı dövrdə onun adının yer aldığı qiymət cədvəli ilə tanışlığım oldu. Cədvəldə əl yazısıyla qeyd olunan "Əla, əla, əla…" sözü sıradan bir "əla" deyildi, bu söz onun uzaqgörən siyasəti ilə Azərbaycanın gələcəyi üçün həyata keçiriləcək əla islahatların xəbərçisi idi.



Bizi dəyərli mənbələrlə Naxçıvan Muxtar Respublikası Dövlət Arxiv İdarəsinin rəisi ***Mehman Məmmədov*** tanış etdi. Onunla söhbətimiz səmimi olduğu qədər, həm də çox maraqlı idi; bir neçə saatın necə keçdiyinin fərqində belə olmadıq. Mehman müəllimin sözlərinə görə, ölkəmizdə arxiv işinin təşkili 1920-ci ilin dekabrından başlayır. Azərbaycan İnqilab Komitəsinin sədri Nəriman Nərimanovun imzaladığı "Vahid dövlət arxiv fondunun yaradılması və Xalq Maarif Komissarlığı yanında Mərkəzi Dövlət Arxivinin təşkili haqqında" dekreti əldə rəhbər tutan Naxçıvan MSSR Mərkəzi İcraiyyə Komitəsi 1925-ci ildə Naxçıvan MSSR-də Mərkəzi Dövlət Arxivinin yaradılması haqqında Qərar qəbul edib. Naxçıvan MSSR Mərkəzi Dövlət Arxivi Naxçıvan MSSR Xalq Maarif Komissarlığının tərkibində fəaliyyət göstərib, Azərbaycanda arxiv orqanlarının yenidən təşkili ilə əlaqədar 1930-cu ildə Naxçıvan MSSR Mərkəzi Dövlət Arxivi fondu təşkil edilib. 1960-cı ilə qədər Arxiv İdarəsi və Mərkəzi Dövlət Arxivi Naxçıvan MSSR Xalq Daxili İşlər Komissarlığının tabeliyində olub. XX əsrin 60-cı illərində muxtar respublikada bu təşkilat Daxili İşlər Nazirliyinin tabeliyindən çıxarılıb Nazirlər Sovetinin tabeliyinə verilib.

Naxçıvan Arxiv İdarəsinin rəisi deyir ki, dövlət arxivlərinə əsl qayğı Ulu Öndər Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə başlayıb. Arxiv sənədlərinə nəzər salsaq, görərik ki, Ümummilli Liderin gənclik dövrünün bir neçə ili Naxçıvan Dövlət Arxivi ilə bağlı olub. Belə ki, 15 oktyabr 1941-ci il tarixdə 80 nömrəli əmrlə Naxçıvan MSSR Xalq Daxili İşlər komissarının razılığı ilə Əliyev Heydər Əlirza oğlu Naxçıvan MSSR Xalq Daxili İşlər Komissarlığının Mərkəzi Dövlət Arxivinə elmi işçi vəzifəsinə qəbul olunub, 6 iyun 1942-ci il tarixli 121 nömrəli əmrlə Dövlət Arxivinin Məxfi şöbəsinə müdir vəzifəsinə təyin edilib. O, burada uzun illər Naxçıvan Arxiv İdarəsinə rəhbərlik etmiş Paşa Əhmədov, Kərim Bayramov və başqaları ilə çiyin-çiyinə çalışıb, Dövlət Arxivində işlədiyi müddətdə respublikada, o cümlədən Ordubad, Culfa, Əbrəqunus rayonlarında arxivlərin qaydaya salınmasında, təşkilatlarda yaranmış sənədlərin arxivə təhvil verilməsində xüsusi xidmətlər göstərib. 1943-cü il iyulun 3-nə kimi Naxçıvan Dövlət Arxivinin Məxfi şöbəsinin müdiri vəzifəsində çalışan Heydər Əliyev 14 iyul 1943-cü il tarixdə Naxçıvan MSSR Xalq Komissarlar Sovetində Ümumi şöbəyə müdir təyin olunub.





Görkəmli dövlət xadimi Heydər Əliyev Azərbaycana birinci və ikinci rəhbərliyi dövründə digər sahələrə olduğu kimi, arxiv işinin inkişafına da xüsusi diqqət yetirib. Müstəqilliyimizin bərpasından sonra respublikamızda arxiv sahəsində yeni normativ-hüquqi aktlar – "Milli Arxiv fondu haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilib. Həmçinin "Azərbaycan Respublikasında arxiv işinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 2 dekabr tarixli Fərmanı ilə Arxiv İdarəsinin statusunun qaldırılması, arxiv xidməti təşkilatlarının maddi-texniki təchizatının təkmilləşdirilməsi, arxiv binalarının təmiri və bərpa işlərinin aparılması, arxiv işçilərinin sosial vəziyyətlərinin yaxşılaşdırılması nəzərdə tutulub. Bu Fərmandan sonra Naxçıvan Muxtar Respublikası Arxiv İdarəsi Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti yanında Arxiv İdarəsinin bazasında yenidən yaradılıb.

Naxçıvan Muxtar Respublikası Dövlət Arxiv İdarəsinin tabeliyində muxtar respublika Dövlət Arxivi, 7 rayon və şəhər arxivi fəaliyyət göstərir. Naxçıvan Muxtar Respublikası Dövlət Arxivində XIX əsrin əvvəllərindən başlayaraq bu günümüzə kimi qiymətli sənədlər saxlanılır. XIX əsrin sonu – XX əsrin əvvəllərinə aid sənədlər Naxçıvan Qəza Polis İdarəsinə, Xalq Məktəbləri Müdiriyyətinə, Torpaq Şöbəsinə, Culfa, Şahtaxtı, Baş Noraşen Gömrük məntəqələrinə, Culfa Post-teleqraf Kontoruna, Ordubad Ali İbtidai məktəbinə aid sənədlərdir. Həmçinin Dövlət Arxivində 1918-20-ci illərdə ermənilərin Naxçıvan, Ordubad, Şərur-Dərələyəz qəzalarına hücumlarını, burada törətdikləri soyqırımı hadisələri haqqında məlumatları özündə əks etdirən sənədlər mühafizə olunur. Ümumiyyətlə, bu gün Naxçıvan Dövlət Arxivində 778 fond üzrə 500 minə yaxın kağız əsaslı sənəd, 4157 kinolent, 74 min 861 fotoşəkil qorunub saxlanılır. Arxivin komplektləşdirmə mənbəyi idarə, müəssisə və təşkilatlar olduğundan sənəd qəbulu ilboyu davam edir, arxiv daim yeni-yeni sənədlərlə zənginləşir.

Tarixin ətri duyulan sənədlərlə tanış olduqca keçmişin dərin qatlarına səyahət edirəm. Burada sanki uzaq keçmişimizin sirli dünyasından gələcəyə uzanan bir körpüylə irəliləyirəm. Əsrlərin sınağından keçərək bugünümüzə gəlib çatan saralmış səhifələri vərəqlədikcə düşüncəmdə əsrlər öncə Naxçıvanla bugünkü Naxçıvanı müqayisə edirəm. Düşünürəm ki, bu diyarda hər doğan günəş gələcəyə parlaq üfüqlər saçır, zaman ötdükcə bu günümüz tarixə dərin, mənalı və xoş izlər buraxır. Bu izlər isə keçmişimizin bələdçisi olan arxivdə əbədiləşdirilərək gələcək nəsillər üçün dəyərli miras kimi qorunur.

✍ **Gülcamal TAHİROVA**

# Yamxana kəndinə yol



**Bəhruz Kəngərli**
**"Yamxana kəndinə yol". 1921**

Azərbaycan realist rəssamlıq məktəbinin banisi Bəhruz Kəngərlini biz yalnız rəssam olaraq deyil, yüksək mənəvi keyfiyyətlərə malik insan, əsl vətəndaş sənətkar kimi anır, yad edirik. Bu gün artıq mövcud olmayan yaşayış məntəqəsi, göl, adamlar, yaşanmış bir sıra tarixi hadisələr haqqında biz Bəhruz Kəngərlinin əsərlərindən "oxuyuruq". İndi də yaşlı insanların xatırladığı "Ədilağa gölü"nü, Came məscidinin minarəsinin ermənilər tərəfindən dağıdılmasını "Naxçıvan. Minarəsi zədələnmiş məscid", Nuhun qəbrinin yerini 1916-1921-ci illər arasında 6 dəfə kətana köçürdüyü "Nuhun qəbri" adlı əsərlərindən bilirik. Rəssam "Qaçqınlar" silsilə əsərləri ilə Zəngəzurdan didərgin düşən insanları çəkməklə 1918-21-ci illərin acı gerçəklərini real obrazların simasında canlandıra bilib. Bununla belə həmin dövrdə yaşamış Naxçıvanın tanınmış simaları, ziyalıları, xeyirxah insanlarının – maarifçi qadın Nazlı xanım Tahirova, rus dili müəllimi Mirzə Məhəmməd Zamanbəyov, xeyriyyəçi, tacir Mirzə Heydər Nəsirbəyov, Əsəd ağa Kəngərlinin portretlərini çəkməsini rəssamın elinə-obasına, tarixinə, insanlarına həssas münasibətinin təzahürü də adlandırmaq olar. Naxçıvanın həmin dövr mənzərəsini Kəngərlinin əsərlərindən öyrənərkən bir əsər də diqqətimizi çəkir: "Yamxana kəndinə gedən yol". Yaşıllıqlar içərisində kəndə doğru uzanan yol təsvir olunub. İlk baxışda düşünürsən ki, yol dağlar qoynunda yerləşən kəndə doğru aparır. Amma...



"Kəndimiz Araz qırağında, yaşıllıqlar içərisində yerləşən gözəl bir yurd yeri idi. Dupduru bulaq suları vardı. Əhalisi əkin-biçinlə, əsasən də heyvandarlıq, camışçılıqla məşğul olurdu. Atam suçu idi. Uzunboğaz çəkmələrini geyinər, kolxozun taxıl və pambıq sahələrini suvarmağa gedərdi. Kəndin o yaşıllığa bürünmüş mənzərəsi, mehriban insanları indiki kimi gözümün qabağındadır. Qonşumuz Zeynəb vardı, onunla məktəbə gedərdik. Tumbulda məktəb 4 illik olduğundan oradan olan şagirdlər də təhsilini bizim 8 illik Yamxana məktəbində davam etdirdilər. Bizə dərs deyən Fizzə, Rəhman, Züleyxa, Qurban, Şükür müəllimi ehtiramla xatırlayıram", – deyir Zeynəb xanım.

Qeyd edək ki, mənbələrdə 1895-ci ildə Naxçıvan qəzasında açılmış məktəblər siyahısında Yamxana məktəbinin də adı çəkilir.

Müsahibim Zeynəb Məmmədova 1953-cü ildə Yamxana kəndində doğulub. Uşaqlığı, gəncliyi o kənddə keçib. Bəhruz Kəngərlinin əsərində kəndlərinə gedən yolu görən Zeynəb xanım kövrəlir, rəsmə sığal çəkir. Deyir ki, atam Bağır Orucov bu kəndə 1907-ci ildə Vedibasar mahalının Qaralar kəndindən çıxıb gəlmişdi: "10 yaşı varmış. Kəndin uşaqları ilə birgə qoyun otarmağa gediblərmiş. Qayıdanda görürlər ki, məscidin həyətində adamlara işgəncə verərək öldürürlər. Bu mənzərədən qorxuya düşən atamla bərabər daha 9 uşaq dağları aşaraq Naxçıvana keçir. Elə o vaxtdan da burada məskunlaşırlar".

Tarixi mənbələrdən oxuyuruq ki, Yamxana kəndində Zəngəzurdan olan qaçqınlar da məskunlaşmışdı. Hansı ki o dövrün Naxçıvanda məskunlaşan qaçqınları da rəssamın "Qaçqınlar" silsilə əsərlərində tarixiləşib.

Bəs Yamxana haqqında tarixi mənbələr nə deyir? 1921-ci ildə Naxçıvan SSR-in Naxçıvan qəzasının tərkibində qeyd olunan rayonlardan biri Tumbul rayonudur ki, özündə 39 kəndi birləşdirib. Hazırda mövcud olmayan Yamxana və Təzəkənd Tumbul rayonunun inzibati-ərazi vahidinə aid olub. Təzəkənd Yamxana kəndi ilə Abbasabad qalasının arasında yerləşib. Araz su anbarının tikintisi ilə əlaqədar hər iki kənd – Yamxana və Təzəkəndin sakinləri indiki Babək şəhəri ərazisinə köçürülüb.

Filologiya elmləri doktoru Adil Bağırovun "Naxçıvan oykonimləri" kitabında Yamxana adına rast gəlirik: "Hələ Hülakilər hakimiyyəti dövründə Qazan xanın fərmanına əsasən bütün əsas yollarda hər 3 fərsəxdən bir (21 kilometr) rabitə dayanacaqları – yamlar yaradıldı. Yamlara əmirlər təyin olundu. Mühüm dövlət sənədləri və məktublar bir yamdan digərinə ötürülməklə ünvana çatdırılırdı. Çox ehtimal ki, Araz çayı boyunca uzanan karvan yolu üzərində yam kimi fəaliyyət göstərən belə rabitə məntəqəsi sonralar daimi yaşayış məskəninə çevrilmiş və nəticədə, Yamxana adı əmələ gəlmişdir. Yamxana yaşayış məntəqəsi kimi 1969-cu ilə qədər mövcud olmuş və Araz su qovşağının tikintisi zamanı kənd başqa əraziyə köçürülmüşdür".

Beləcə, bir rəsmin izi ilə tarixi vərəqlədik. Yamxanalı ilə həmsöhbət olub, vaxtilə insanların yurd yeri olmuş, qaçqınlara qucaq açmış "Yamxana kəndinə yol"da böyük rəssam, iftixarımız Bəhruz Kəngərlini sevgi ilə andıq.

✍ **Ruhiyyə RƏSULOVA**

# Tarixin işığında: Qazançı

Ailə arxivimdən tapdığım bir arayışda yazılıb: "Bu arayış Əliyeva Surə Maqsud qızına ona görə verilir ki, oğlu Əliyev Seyfəddin Müzəffər oğlu 1940-41-ci tədris ilində Əbrəqunus rayonunun Qazançı kəndində 7 illik orta məktəbdə müəllim işləmiş və 645 rubl dəyərində məvacib almışdır".





Ruhiyyə RƏSULOVA

Ana babam Seyfəddin Zəngəzur mahalının, o cümlədən Comərdli kəndinin əksər sakinləri kimi erməni zülmündən Naxçıvana pənah gətirənlərdən idi. 1918-ci il soyqırımından başlanan qaçqınlıq həyatı zəngəzurluların bir qisminin dağların bu biri üzündə məskunlaşmasına səbəb olmuşdu. Culfa, Ordubad və Şahbuzu dövrələyən Zəngəzur sıra dağları övladlarına körpü olmuş və bu yolla Naxçıvanda məskunlaşan, ömrünü Naxçıvana bağlayan zəngəzurluların sayı artmış, onlar adıçəkilən bölgələrin kəndlərində, o cümlədən Qazançıda yaşayışlarını davam etdirmişlər. Bu gün Qazançıda zəngəzurluların Kərbəlayı İsmayıllılar, Hacılılar, Allahqulular, Əlirzalılar, Cinnilər tayfalarından olan törəmələri yaşamaqdadırlar.

Bununla belə Qazançı Culfanın köklü kəndlərindən biridir. "Naxçıvan diyarının yer yaddaşı" kitabında bu yaşayış məntəqəsinin qədim türkmənşəli bulqarların Kazan tayfasının məskunlaşması nəticəsində yaranması qeyd olunub. Tarixin bəlli dönəmlərində burada ermənilər də yaşamış və tarixin izlərinə ciddi ziyan vurmuşlar ki, biz bu barədə də yazacağıq. Türkmənçay müqaviləsindən sonra Azərbaycan torpaqlarına məqsədyönlü şəkildə köçürülən ermənilər seçim olaraq bu yurdun ən səfalı və füsunkar kəndlərini hədəfləmişlər. Müqavilənin şərtlərinə görə İrandan Azərbaycana köçürülən erməni əhalisinin bir hissəsi – 1051 nəfər Əlincəçay mahalının Güznüt, Qızılca, Əbrəqunus, Kırna, Bənəniyar, Göydərə, Qazançı, Ərəzin, Saltaq, Paradaş, Gal və başqa kəndlərində yerləşdirilmişdir. Yaşamaq üçün zamanla havadarlarının əli ilə Azərbaycandan qopardıqları torpaqlarda yermi yox idi? Əlbəttə, var idi. Təbii ki, məqsəd yaşamaqdan ziyadə çörəyini yeyib, suyunu içdikləri torpaqları tədricən özününküləşdirmək və "böyük Ermənistan" xülyasını gerçəkləşdirmək idi...

**Sorağı uzaq keçmişdən gələn yurd yeri**

Qazançı Əlincəçay mahalında, Əlincəçayın sağ sahilində rayon mərkəzindən, təxminən, 43 kilometr şimalda yerləşir. Xanəgahla Milax arasındakı bu yaşayış məntəqəsi dağlarla əhatələnmiş, bulaq suları ilə rövnəqlənmişdir. Səfalı yurd yeri Böyük İpək Yolunun üzərində yerləşdiyindən burada yaşı qədimlərə dayanan körpülərin sayı çox olmuşdur. Körpülərdən 4-nün hazırda qalıqları mövcuddur. Kəndin cənub tərəfində, Əlincəçayın üzərində Şərq memarlıq üslubunda inşa olunmuş və günümüzədək qismən salamat gəlib çıxmış biraşırımlı körpü Azərbaycan memarlığının möhtəşəm nümunələrindən sayılır.





Tarix üzrə fəlsəfə doktoru, dosent Elbrus İsayev "Böyük İpək Yolu və Naxçıvan" kitabında qeyd edir ki, Böyük İpək Yoluna xidmət edən bu körpü vasitəsilə vaxtilə Qazançı kəndindən şərq istiqamətində uzanan və Ordubad ərazisində əsas yola birləşən karvan yolları keçirdi. Bu körpü quruluşuna görə el arasında "Qozbel körpü" adı ilə məşhurdur.

Naxçıvanı Tədqiq və Tətəbbö Cəmiyyətinin elmi katibi M.Mirheydərzadə 1930-cu ildə nəşr etdirdiyi "Əbrəqunus dairəsi məşhur Əlincə çayı sahilində vaqe bir neçə kəndlərin və Əlincə qalasının tədqiqi" məqaləsində Qazançı kəndi haqqında bəhs edərək yazır: "Qazançı kəndi 107 evdir. Kişisi 130, qadını 117, uşaqları 147 nəfərdir. Qazançı kəndi ehtimal var ki, Qazan xanın adı ilə adlanmış ola..."

**Rəvayət, yoxsa həqiqət?**

"Qazançı" sözünün mənasına gəlincə tədqiqatçıların fərqli yanaşmaları vardır. Lakin Naxçıvan ərazisində geniş yayılmış Qazangöl aşırımı, Qazan yurdu, Qazandağ, Babək rayonundakı Qazan yaylağı, Qazan yurdu, Qazan bulaq, Qazan yoxuşu və digər Qazan köklü toponimlər "Kitabi-Dədə Qorqud" dastanının baş qəhrəmanı Qazan xanın adı ilə bağlılığı ehtimalını daha da artırır. Filologiya elmləri doktoru Adil Bağırov da, nəticə etibarilə, yaşayış məntəqəsinin adının Qazan xanla əlaqəli olduğu qənaətinə gəlir.

Kəndin yaşlı sakinlərindən, hazırda təqaüddə olan müəllim Zakir Həsənovun da eşitdikləri və bizə danışdıqları maraq doğurur: "Təxminən, 7-ci sinifdə oxuyardım. Kəndimizə Sirabdan yaşlı bir kişi qonaq gəlmişdi. O danışırdı ki, mənim ulu babam Qazan xanın nəslindəndir və bu kəndə doğulub. Berdi dağının ətəyində yaşayış yeri olub. Beyrəyi o dağın ətəyinə köçürüb. Bayanduru Ballı dağı var, ora köçürüb, mənim ulu babamı da Məzrə yaxınlığına köçürüb. Sonrakı dövrdə həmin nəslin nümayəndələri Sirabda məskunlaşıblar".

Xalq arasında yayılan hər bir rəvayətin əsasında, əslində, gerçək bir tarix dayanır. Onu da xatırladaq ki, "Qazançı" toponimi tək muxtar respublika ərazisində deyil, ölkənin bir sıra bölgələrində də mövcuddur. İrəvan xanlığının Vedibasar mahalının, eləcə də Zəngilanın Qazançı kəndini misal gətirmək olar. Əlbəttə ki, adıçəkilən ünvanlar əlaqəsiz deyil.

**Sındırılan qoçlar**

Zakir Həsənov deyir ki, kənddə vaxtilə 4 qəbiristanlıq salınıb. Demək, burada tayfalar olub. Hər tayfanın da öz qəbiristanlığı. Qəbiristanlıqda daş sənduqələr, qoçlar var idi. Sənduqələrin üzərində ölən şəxsin sənətini əks etdirən – dərzi, çoban və sair motivlər cızılmışdı. Biz onda uşaq idik. Ermənilər deyirdilər ki, bu daşların içində qızıl var. İnanıb sındırırdıq. Daha anlamırdıq ki, biz öz əlimizlə tarixin izlərini itiririk. Bir təpə var idi. Orada guya 1800-cü illərdə dünyasını dəyişən ermənilər dəfn olunmuşdu. Hər halda başdaşlarında erməni əlifbası ilə belə yazılmışdı. Sonra qaldırıb baxdıq ki, sən demə, boş ərazi imiş, bunlar tarix yazıb başdaşı qoyublar ki, yəni biz burada əzəldən yaşamışıq...

Sonra mən universiteti bitirib kəndə müəllim kimi qayıdanda o qoçları, daşdan gül qabları, kənd ərazisində geniş yayılan daş hovuzları gətirib məktəbin həyətində muzey yaratdıq. Sonrakı illərdə həmin nümunələr Naxçıvan şəhərində yaradılan Açıq Səma Altında Muzeyə daşındı. İndi də orada qorunub saxlanılır.

Və kəndimizin tarixiliyini göstərən daha bir abidə – Qazançı qalası da erməni fitnəkarlığının qurbanı oldu. Deyərdim ki, Qazançı qalası Naxçıvanda mövcud olan qalaların içərisində, bəlkə də, ən möhtəşəmi idi. Həmin o yaşlı kişi nəql edirdi ki, bu qala Qazan xanın müdafiə qalası imiş.

**Erməni fitnəkarlığının qurbanı – Qazançı qalası**

Akademik İsmayıl Hacıyevin "Culfa rayonunun tarixi" kitabında oxuyuruq: "Qazançı qalası e.ə. III-I minilliklərə aid dünya əhəmiyyətli tarixi-arxeoloji abidədir. Ehtimal edilir ki, Qazançı qalası e.ə. II minilliyin əvvəlində Əlincəçay vadisində yaşamış iri tayfa birliyinin mərkəzi olmuşdur. Qala divarlarının tikinti texnikası Oğlanqaladakı kimidir".

Əlincəçayın sağ və sol sahillərinə qədər uzanan 20 hektardan artıq ərazini əhatə edən qaladan indi cüzi bir əsər qalıb. Qala 1985-ci ildə bənd tikintisi adı ilə erməni mühəndisləri tərəfindən hazırlanmış layihə əsasında partladılaraq dağıdılıb. Həmin dağıntılar tariximizə əl uzadan erməni fitnəkarlığının bariz nümunəsi kimi qalmaqdadır.

**"Tarixə vurulan yara"**

"Kommunist" qəzetinin 13 noyabr 1987-ci il tarixli sayında Azərbaycan SSR EA Tarix İnstitutunun Yeni tikinti sahələrinin arxeoloji tədqiqi şöbəsinin müdiri, tarix elmləri doktoru Rəşid Göyüşovun "Tarixə vurulan yara. Mədəniyyət abidələrinə cinayətkar biganəlik nəticəsində Qazançı qalası partladılmışdır" sərlövhəli məqaləsi diqqətimizi çəkir. Qalanın dağıdılmasına etirazını bildirən müəllif ölkəmizin ərazisində ibtidai icma quruluşunun dağılması və son dərəcə mürəkkəb sosial dəyişmə olan sinifli cəmiyyətin, bütövlükdə isə dövlətin yaranması prosesini özündə təcəssüm etdirən ən nadir abidələrdən biri kimi qiymətləndirir. Azərbaycan SSR Nazirlər Sovetinin qərarı ilə qoruq elan olunmuş "Qazançı" vaxtilə məşhur Əlincə qalasını şərq cinahından müdafiə edən mühüm hərbi-strateji məntəqə sayılırdı. Qazançı qalası sakinlərinin yüksək mədəniyyəti və zəngin iqtisadi imkanları olub. Partlayış zamanı üzə çıxmış maddi mədəniyyət qalıqları bu əvəzsiz abidənin, təxminən, 3500-4000 il əvvəl Naxçıvan mahalının iqtisadi, siyasi və mədəni həyatında nə qədər yüksək mövqe tutduğunu sübut edir".

Çox təəssüf ki, bu qədər mühüm əhəmiyyət daşımış qalanın möhtəşəmliyi, əzəməti haqqında indi yalnız mənbələrdən oxuyuruq...

Aşağı Anzır kəndinin şimalında, Qazançı kəndinin cənub-şərqində olan tarixi-arxeoloji abidə Berdi qalasıdır. Qala təbii qayanın üzərindədir, həm də hər tərəfdən sıldırım qayalarla əhatə olunmuşdur. Qala ilə üzbəüz aşağı hissədə qədim yaşayış yerinin qalıqları qalmaqdadır. Ərazidə tək salamat qalan daş hovuzdur.

**Yeni dövrün Qazançısı**

Bir çox tarixi hadisələrin və acı gerçəklərin şahidi olmuş Qazançı bu gün öz inkişaf dövrünü yaşayır. 2018-ci ildə kənddə kompleks quruculuq işləri aparılıb. Təmiz havası, dupduru bulaq suları, füsunkar mənzərəsi və yaradılan şərait gənc ailələrin yaşaması, məskunlaşması üçün Qazançı kəndini ideal ünvana çevirib.

Qazançı məktəbi ötən illər ərzində müxtəlif peşə sahibləri, ziyalılar yetişdirib. Bununla belə vətənpərvərlik bu təhsil ocağının əsas qayəsi olub. İstər Birinci, istər İkinci Qarabağ müharibəsində, Vətənin dar günündə harayına yetişən oğulları olub Qazançının. Məktəbin foyesində qəhrəman döyüşçülərin fotolarından ibarət guşə yaradılıb. Gənc nəsil örnək alsın, yaşadığı torpağını göz bəbəyi kimi qorusun deyə.

Kəndin adamlarının əsas güzəranı torpaqdandır. Qazançının ucsuz-bucaqsız çölləri burada taxılçılığın və əkinçiliyin müxtəlif sahələrinin inkişafına zəmin yaradıb. Digər əsas məşğuliyyətlər sırasına heyvandarlıq və qismən də bağçılıq daxildir.

Qazançının tarixinə nəzər saldıq, Qazançı qalasından kəndin füsunkar mənzərəsini seyr etdik. Düşündük ki, elə torpağına bağlı olan, yaşadığı kəndin təbiətinə rəng qatan, varlığı ilə kənd həyatını sönməyə qoymayan hər bir insan da özlüyündə qaladır. Tarixə sayğı, tarixə işıq salan insanlara sevgi ilə.

# Yurd həsrəti...

*Culfa rayonunun Şurud kəndinə səfərimiz bu dəfə yurd həsrəti ilə çırpınan insanların həyat hekayələrini dinləmək məqsədini daşıyırdı. Əzəmətli Haçadağın ətəyində yerləşən bu qədim kəndə gedərkən yolumuz əvvəlcə qonşu Gal kəndindən keçdi. Bu kənddə də Qərbi Azərbaycandan didərgin düşmüş soydaşlarımızla görüşməli idik.*

Şurud kəndinə çatdıqda yerli camaatın qonaqpərvərliyini gördük. Kənddə bizi böyük mehribanlıqla qonaq etdilər. Süfrələrindəki hər tikə çörəkdə, hər isti təbəssümdə sanki öz yurdlarının, öz adət-ənənələrinin izi var. Burada yaşayan hər bir insan öz həyat hekayəsi ilə diqqət çəkirdi, lakin hamısını birləşdirən ortaq bir məqam var: torpağa bağlılıq.

Kənddə hər həyətdə mal-qaranın səsi eşidilir, qoyun-quzuların otlaqlarda gəzib-dolaşdığı görünürdü. Bu insanlar öz zəhmətləri ilə həm ailələrini dolandırır, həm də adət-ənənələrini yaşadırlar.

Heyvanların suvarıldığı kiçik bulaqlar, samanla dolu anbarlar – hamısı kənd həyatının bir parçasıdır. Burada zaman sanki təbiətin ritmi ilə axır. Gündüzlər çöl işləri, axşamlar isə ailəvi söhbətlərlə dolu bir yaşam tərzi mövcuddur. Bu mənzərə özündə bir harmoniya daşıyır.

Şurudda hər addımda bu torpağın zəhmətkeş insanlarının səmimiyyətini hiss edir, bir anlıq bu həyatdan ilham alırıq. Təbiət qədər təmiz və zəngin ruhu olan bu kənd bizə həm sakitlik, həm də keçmişin dərin izlərini yaşadır.



Gal kəndində bizi mehriban siması ilə Gülarə Əliyeva qarşıladı. O, Qarakilsə rayonunun Comartlı kəndində kolxozçu ailəsində doğulub, uşaqlığının ilk illərini bu yurdun saf təbiətinin qoynunda keçirib. Söhbət zamanı Gülarə xanımın xatirələri sanki yavaş-yavaş açılan bir kitab kimi qarşımızda canlandı.

"O vaxt dava yox idi, amma ermənilər yerli camaatı sıxışdırırdılar. Biz də 7 ailə yurdumuzu tərk etməyə məcbur olduq. Buradan maşın göndərildi, əşyalarımızı yığdıq, ancaq evlərimiz salamat qaldı. Mən bu kənddə təhsilimi davam etdirdim, sonra yenidən ana nənəmin yanına – Qərbi Azərbaycana qayıtdım. Orada təbiət hədsiz gözəl idi, uşaqlıq illərim dağlardan cacıq, çiriş, maral baldırğanı, turşməzə kimi müxtəlif otları yığmaqla keçib", – deyə Gülarə xanım uşaq kimi saf təbəssümlə keçmişini xatırlayır. Xoş söhbətimizlə vaxtın nə cür axıb keçdiyindən özümüz belə xəbərsizik.

O, Qərbi Azərbaycanla bağlı xatirələrindən danışanda gözləri dolur: "Uşaqlığımda xalçalarımızın necə toxunduğunu izləyirdim. Oradan gətirdiyimiz xalçalar bu gün də evlərimizi bəzəyir. Həmin xalçaların üzərində sanki torpağımızın ətri var".

Galdan ayrılanda yolboyu təbiətin bizə bəxş etdiyi mənzərələrə heyranlıqla baxırıq. Dağların məğrurluğu sanki əsrlərin hikmətini pıçıldayır. Avtomobili saxlayıb yolüstü yerləşən bulaqda olduq, bu torpağın ruhunu daha dərindən duymaq istədik. Yolyoldaşlarımızla birlikdə suyun buz kimi şəffaflığını, təbiətin sərin nəfəsini hiss etdik.



Şurud kəndində həmsöhbət olduğumuz Reyhan Qurbanovanın həyatı sanki gözlərimizin önündə film kimi canlanır. O, Qafan rayonunun Pəyhan kəndində doğulub. Onun xatirələri həm ağır, həm də ümidlə dolu idi: "Gördüklərimizdən yoldaşımla qərar verdik ki, kəndi tərk edək. 1988-ci ildə gəlib bu kəndə çatdıq. Çox çətinlik çəkdik, amma yavaş-yavaş həyatı yoluna qoyduq".

Bir qədər fikrə gedib söhbətinə davam edir: "Yurdumuza qayıtmaq istəyirik, amma bura da artıq bizim evimizdir. Çox çətin günlər gördük, ancaq ən ağır itkilərimizi bu torpaqda yaşadıq", – deyir.

Reyhan xanım göz yaşlarını saxlaya bilmir, 23 yaşında balasını torpağa tapşırması onu bu yerlərə bir daha bağlayıb... "Buranı çox sevirəm, amma yurd yerlərimizin həsrəti də bitib-tükənmir", – deyir.



Şəhla Orucova da həmin dövrün ağrısını yaddaşında qoruyub saxlayanlardandır: "Qaçaqaç düşəndə bizim ailə bir qədər sakit vaxtda çıxdı. Amma bizdən sonra gələnlər çox əziyyət çəkdilər. O vaxt dağlardan keçərkən ermənilərin təqiblərinə şahid olduq. Hər addımda həyatımız təhlükə altında idi", – deyə xatırlayır.

Şəhla xanımın söhbəti: "Bir qadın mal-heyvanını götürüb qaçmaq istəyərkən Qazangöl adlanan ərazidə ermənilər onu öldürüblər. Belə hadisələr bizim üçün böyük ağrıdır".

Şəhla xanımın dediyi hər söz sanki bir yuxu kimi idi: "Evimizi, həyətimizi tez-tez yuxularımda görürəm. Orada anamın əkdiyi güllər, həyətimizdən axan çay, hər şey cənnət kimi idi", – deyən Şəhla xanım sanki uzaqlara baxdıqca dağlar arxasında qalan yurd yerlərimizə uzanan həmin baxışlarla bizi də o torpaqların yerləşdiyi məkana aparırdı...

Şurud kəndinin küçələri, qonaqpərvər insanlar, gülən zaman qırışan gözlərin altında yatan qəmginlik...

Rasim Orucov da həmin baxışların sahiblərindəndir...

Qərbi Azərbaycanın Kurud kəndindən Culfa rayonunun Şurud kəndinə köçərkən həyatının necə dəyişdiyini danışır: "Bizim köçümüz atlarla oldu. Hərdən o vaxtların gözəlliyini xatırlayıram, amma yurd həsrəti çəkmək ağır dərddir. O torpaqlara qayıtmaq ən böyük arzumdur".



Orucovlar ailəsinin ağsaqqalı, 1931-ci ildə dünyaya göz açmış, bu gün elin ağsaqqalı kimi tanınan Əli Orucov keçmişin izlərini öz xatirələrində yaşadır. Nəvələrini ətrafına toplayaraq keçmişdən süzülüb gələn nağıl kimi bir həyatı onlara danışır.

Səsi bəzən titrəyir, dərindən bir ah çəkərək deyir: "Buralar da vətəndir, amma atababa yurdumun hər daşını, hər ağacını görmək yeganə arzumdur". Onun baxışlarında tükənməz bir həsrət, ümidlə qarışmış qürur gizlənib. Hər sözündə öz yurduna olan sevgisini, itirilmiş torpaqlarının acısını hiss edirik.

Əli babanın dərin qırışlarla bəzənmiş sifəti həyatın bütün çətinliklərini bir kitab kimi özündə ehtiva edir. Ümid dolu baxışları ilə sanki deyir: "Bir gün yenidən o yerlərə qayıdacağıq". Bu həsrətli baxışlar həm keçmişin ağırlığını, həm də gələcəyə olan inamı əks etdirir.

Hər kəsin hekayəsində keçmişin izləri var – sevinc, həsrət, kədər. Amma bütün bu xatirələrin arxasında tükənməyən bir ümid hiss olunur. Qərbi Azərbaycandan gələnlərin hər biri bu yurd həsrətini yaşatsa da, Culfa torpağında həyatlarını davam etdirmək üçün əzmlə çalışır, adət-ənənələrini yaşadırlar. Bütün bu hekayələr bir-birinə qarışıb sanki Azərbaycanın keçmişini və gələcəyinin bir aynasına çevrilir.

**Aidə İBRAHİMOVA**
**Rafiq TƏHMƏZ**

# Özünüməşğulluq tədbirləri davam etdirilir

Ölkəmizdə aztəminatlı ailələrin sosial rifahını yüksəltmək məqsədilə özünüməşğulluq tədbirləri diqqət mərkəzində saxlanılır. Bu proqram çərçivəsində aztəminatlı ailələr fərdi təsərrüfatlarının təməlini qoyur, onu inkişaf etdirir, dövlət vəsaiti hesabına malmateriallarla təmin edilir. Naxçıvanda da özünüməşğulluq proqramına cəlb edilmiş aztəminatlı ailələrə aktivlər verməklə, özünüməşğulluğun təşviqi ilə həmin şəxsləri yardım asılılığından azad edib, uzun müddətdə maliyyə dayanıqlığını təmin etmək qarşıya qoyulan əsas məqsədlərdən biridir.

Təkcə ötən il Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi tərəfindən 1959 nəfər özünüməşğulluq proqramı iştirakçısı aktivlərlə təmin olunub. Qeyd edək ki, onların bir hissəsi şəhid ailələrinin üzvləri və qazilərdir.

Proqram iştirakçıları onlara verilmiş aktivlər hesabına öz kiçik biznes sahələrini yaradıblar. Onu da qeyd edək ki, özünüməşğulluq proqramına cəlb edilən işsiz və işaxtaran şəxslər üçün əvvəlcə kiçik biznesin təşkili üzrə bilik və bacarıqlara malik olmaları məqsədilə təlimlər təşkil edilir, sonra aktivlərlə təmin olunurlar.

Özünüməşğulluq proqramına qoşulanlardan biri də Seyfəddin Rəhimovdur. O, uzun zamandır, evlərimizin bəzəyi olan mebellərin yığılması, hazırlanması işi ilə məşğuldur. Artıq 5-6 ildir, bu sənətlə daha peşəkar məşğul olan usta deyir ki, hələ uşaq vaxtından bu sahəyə marağım olub: "İlk dəfə, təqribən, 7 il bundan əvvəl bu sənəti öyrənmək üçün bir ustanın yanında çalışmağa başladım. Bir müddət köməkçi kimi işlədim. Sonra sexdə usta olaraq fəaliyyətimi davam etdirdim. Bu il qərar verdim ki, artıq öz işimi qurum. Bu işi görmək üçün avadanlıqlara ehtiyacım var idi, bir neçə-



sini aldım, lakin işimin əsasını görən kəsmə alətini ala bilmədim. Maddi imkanım buna yetmədi. Eşitmişdim ki, Dövlət Məşğulluq Agentliyi maddi rifahını yaxşılaşdırmaq üçün müxtəlif sahələrlə məşğul olaraq işini inkişaf etdirmək istəyən vətəndaşları öz sənəti üzrə avadanlıqlarla təmin edirlər. Mən də Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyinə avadanlıqla təmin olunmaq üçün müraciət etdim. Tezliklə həmin avadanlıqla təmin olundum. Onu da deyim ki, həmin alət 7000-8000 manat dəyərindədir. Layihənin ən yaxşı tərəfi isə ondadır ki, bütün avadanlıqlar bizim adımıza qeydiyyata alınır, yəni fəaliyyət sahəmiz üzrə bizə ayrılan avadanlıqlar öz şəxsi avadanlığımız olur. Bu cür sosial təşəbbüsə görə dövlətimizə təşəkkür edirəm".



Tural Abbasbəyli də ötən il özünüməşğulluq proqramına cəlb olunanlardandır. O, Naxçıvan şəhərində avtoelektrik xidməti göstərir. 10 il öncə bu işə Qazaxıstanda başlayan Tural usta 6 ay öncə Vətəninə qayıdıb. Elə qayıdan kimi də həmin işi burada davam etdirməyə qərar verib. Tural usta deyir: "Burada bu işə başlayanda tərəddüd edirdim, çünki işimin əsasını görən diaqnostika cihazım yox idi. Sözün düzü, başqa ustanın yanında çalışmağa tərəddüd edirdim. Tanışlardan biri belə bir sosial layihə olduğunu söylədi. Mən də Dövlət Məşğulluq Agentliyinə müraciət etdim. Bir neçə ay müddətində agentlik məni təxmini dəyəri 8000 manat olan diaqnostika cihazı, 1600-1700 manat dəyərində forsunka yuyan aparat və avtoelektrik çamadanı ilə təmin etdi. Sözün düzü, bu qədər dəstək görəcəyimə inanmırdım. İndi öz Vətənimdə öz yurdumun insanlarına xidmət edir, yaxşı da qazanc əldə edirəm. Yaradılan şəraitə və dəstəyə görə minnətdaram".

**Gülcamal TAHİROVA**

# NAXÇIVAN – tarixləşən ruh, əbədiləşən Vətən



*Haradan başlayasan bu sehrli diyarı təsvir etməyə? Keçmişindən, sarsılmaz iradəsindən, yoxsa dağlarına hopmuş əsrlərin nəfəsindən? Naxçıvan, sadəcə, bir şəhər deyil, o, tariximizin qızıl səhifəsidir. Təkcə 101 illik muxtariyyət tarixi ilə yox, minilliklər boyu bu torpaqda yaşayan insanların daş üstünə qoyduğu daşla, dözümlülük və zəka ilə dəyərlidir.*



Naxçıvanın adını eşidən hər kəsin zehnində ilk canlanan obraz, bəlkə də, Nuh Peyğəmbərin əfsanəsi olur. Rəvayətə görə, Nuhun gəmisi tufandan sonra Naxçıvandakı Haçadağda dayanıb. Elə buna görə də Naxçıvan "Nuhun məskəni" adlandırılıb. Bu əfsanə təkcə dini bir inanc deyil, həm də Naxçıvanın insanlığın ən qədim yaşayış məskənlərindən biri olduğunu göstərir.

Naxçıvan tarixboyu sanki İbrahim peyğəmbərtək mancanağa qoyularaq od-alovun içərisinə atılmış, lakin həmin od-alova baxmayaraq, gülüstana çevrilmişdir... VII əsrdə ərəb işğalları, XI-XII əsrlərdə Səlcuqlar və Atabəylər dövrlərində mədəni çiçəklənmə, XIV əsrdə Əmir Teymurun yürüşləri, sonra Səfəvilər və Osmanlılar arasında gedən mübarizələr bu torpağın hər daşına iz qoyub. 1918-ci ildə erməni daşnaklarının hücumlarına baxmayaraq, Naxçıvan əhalisi mübarizəsini dayandırmadı. Nəhayət, 1924-cü il fevralın 9-da Naxçıvan Muxtar Sovet Sosialist Respublikası yaradıldı. O gündən etibarən bu torpaq Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi inkişaf etməyə başladı.

Naxçıvanın hər guşəsi tarixin izlərini daşıyır. Burada hər tikili bir mədəniyyət yadigarı, hər qalanın divarları bir döyüşün, bir qəhrəmanlığın şahididir.

Möminə xatın türbəsi... XII əsrin incisi, Naxçıvan memarlıq məktəbinin şah əsəri... Atabəy hökmdarı Şəmsəddin Eldəniz bu türbəni sevimli həyat yoldaşı Möminə xatının əziz xatirəsinə ucaltdı. Memar Əcəmi Naxçıvani bu möhtəşəm abidəni elə inşa etdi ki, əsrlər keçsə də, bu sənət əsəri öz əzəmətini qorumağa davam edir.

Əlincə dağının zirvəsində ucalan məğrur qala isə əsrlərboyu fatehlərə müqavimət göstərib. XIV əsrdə Əmir Teymurun ordusu bu qalaya hücum etsə də, burada yaşayan döyüşçülər onlara qarşı illərlə mübarizə aparıb. Bu gün Əlincə qalası Naxçıvanın milli qürurunun simvoluna çevrilib.

Naxçıvan təkcə tarixi abidələri ilə yox, həm də bənzərsiz təbiəti ilə insanı valeh edir. Burada dağlar sanki tarixə şahidlik edən sükut qüllələridir.

Naxçıvanın rəmzlərindən birinə çevrilən Haçadağ... İkizirvəli bu dağ sanki qədim əjdahanın qılınc kimi parlayan silueti kimidir. Haçadağ həm əfsanələrlə, həm də qədim inanclarla bağlıdır.

Ayna kimi təsviri ilə ecazkar mənzərəsini əks etdirən Batabat gölü, bir qrup insana güman yeri, sığınacaq olmuş qədim Əshabi-kəhf qayalıqları...

Keçmişə sadiq qalaraq gələcəyə addımlayan Naxçıvan bu gün də Azərbaycanın ən inkişaf etmiş bölgələrindən biridir. Enerji sahəsində qazandığı uğurlar, "yaşıl enerji" layihələri, müasir şəhərsalma prosesi bu torpağı daha da gözəlləşdirir.

101 il tarix üçün qısa bir zaman kəsiyi olsa da, Naxçıvan bu illər ərzində dəfələrlə sübut etdi ki, o, mübarizə, inkişaf və qürur torpağıdır. O təkcə Azərbaycanın deyil, bütün Türk dünyasının bir mirasıdır.

Bu gün, muxtariyyətin 101-ci ildönümündə biz yalnız bu torpağın keçmişini deyil, gələcəyini də düşünürük. Çünki Naxçıvan yalnız daşlardan və binalardan ibarət deyil, o, ruhu, tarixi və gələcəyi ilə yaşayan bir Vətəndir.

Və bu Vətən əsrlərboyu var olacaq...

**Rafiq TƏHMƏZ**

## Naxçıvan idmançılarının ölkə birinciliyində qazandığı 26 medaldan 9-u qızıl olub



Şağan Olimpiya İdman Kompleksində MMA, pankration, qreppling (qreppling-qi) idman növləri üzrə yeniyetmələr arasında Azərbaycan birinciliyi keçirilib. 3 gün davam edən yarışda 50 klubdan 500-ə yaxın idmançı iştirak edib.

Yarışa Naxçıvandan məşqçi Xəyal Abdullayevin rəhbərliyi ilə "Turan" Döyüş Klubunun 13 idmançısı qatılıb. Təmsilçilərimiz qeyd olunan idman növləri üzrə 9-u qızıl, 9-u gümüş, 8-i bürünc olmaqla, ümumilikdə, 26 medal qazanıblar.

Hər növdə minimum 2 qızıl medal qazanılsa da, ən yaxşı nəticələr pankrationda qeydə alınıb. Belə ki, bu idman növündə idmançılarımız 6 qızıl, 4 gümüş və 1 bürünc medal əldə ediblər.

Musa Abdullayev (MMA, qreppling -66 kq), Atilla Nəcəf (MMA, pankration -60 kq) və Ayxan Quliyev (Pankration, qreppling -30 kq) ayrı-ayrı növlərdə hərəyə 2 qızıl medal qazanmaqla ölkə birinciliyində ardıcıl çempionluq sevinci yaşayıblar. Qadir İsmayılov (+73 kq), Əli Qəribov (73 kq), Uğur Bağışov (53 kq) və Əbülfəz Cəfərov pankrationda, Tunar Abdullayev isə qrepplinqdə birinci olublar.

## Elan

"Xidmət" Səhmdar Cəmiyyətinin səhmdarlarının nəzərinə çatdırılır ki, Naxçıvan şəhəri, Xətai küçəsi 6 ünvanında yerləşən "Xidmət" Açıq Səhmdar Cəmiyyətinin inzibati binasında 29 mart 2025-ci il saat $11^{00}$-da səhmdarların ümumi yığıncağı keçiriləcəkdir.

Yığıncağın gündəliyində aşağıdakı məsələlər durur:

1. Cəmiyyətin ümumi yığıncağının reqlamentinin təsdiqi;
2. Cəmiyyətin 2024-cü ildə maliyyə-təsərrüfat fəaliyyətinə dair idarə heyəti sədrinin hesabatı;
3. 2025-ci ildə cəmiyyətin fəaliyyət proqramına baxılması;
4. Sair məsələlər.

## İtmişdir

Ordubad rayonu, Vənənd kəndində yaşamış Bayramov Əyyub Yusif oğlunun adına olan JN-947^C nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

"Gəmiqaya" Məhdud Məsuliyyətli Cəmiyyətinə məxsus 85 K 183 dövlət nömrə nişanlı çəngəl ağız yükləyicinin texniki pasportu itdiyindən etibarsız sayılır.

***

"Bərəkət" Bazarlama Məhdud Məsuliyyətli Cəmiyyətinə məxsus 185 FX 587 dövlət nömrə nişanlı çəngəl ağız yükləyicinin texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Qaraxanbəyli kənd sakini Hüseynov Səfər İmran oğlunun adına olan 104013014532 reyestr nömrəli torpaq sahəsinin plan-ölçüsü itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Xanlıqlar kəndində yaşamış Cavadov Cahangir Əli oğlunun adına olan JN-159 nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Culfa rayonu, Kırna kəndində yaşamış Hüseynov Əkbər Vəli oğluna məxsus 099^A nömrəli, 10604018 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Cəhri qəsəbəsində Seyidov M.İbrahim Seyidağa oğluna məxsus JN-2257^A nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Şəhriyar kəndində yaşamış İbrahimov Əli Həsən oğlunun adına olan JN-20^A nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Cəfərov Toğrul Hidayət oğlunun adına Ukrayna Mülki Müdafiə Universiteti tərəfindən 2013-cü ildə bitirməsi haqqında verilən diplomun qiymət cədvəli itdiyindən etibarsız sayılır.

ŞƏRQ QAPISI
Baş redaktor:
SARA ƏZİMOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Vöen: 0200065441

Çapa imzalanmışdır 00:00
Tiraj: 1000. Sifariş № 42

Nömrəyə məsul: Ceyhun Məmmədov, Aidə İbrahimova, Türkanə Əsədova
Dizayner: Lətif Zeynalov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.